# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 21 (3345) Cümə axşamı / 25-26 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Rusiya Ermənistan üçün yeni ordu yaradır



**Fəhmin Hacıyev,**
Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının keçmiş komandanı

***Bu gün Dağlıq Qarabağda baş verənlərlə bağlı çoxlu sual qarşısında qalan ölkə ictimaiyyəti Azərbaycanın bütün ərazilərində öz dövlətinin idarəçilik orqanlarının fəaliyyətinin tez bir zamanda bərpasını gözləyir. Vətən Müharibəsi qələbəsindən sonra erməni həyasızlarının yenidən "Dağlıq Qarabağ respublikası" nağıllarına uyması və Rusiyanın ermənilərin başını sığalaması birmənalı qarşılanmır. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının keçmiş komandanı Fəhmin Hacıyev bir çox məqamlara toxunub.***

**Azərbaycan tərəfi hər gün və hər saat müharibəyə hazır olmalıdır**

▸▸ Səh. 3

# Paşinyanın partlamayan "İSGƏNDƏR"İ

*Ötən il Qarabağ müharibəsinin sonlarına yaxın Ermənistan ordusu Şuşaya "İsgəndər" raketi ilə zərbə endirib. Ermənistan, həmçinin Gəncə şəhərində mülki binalara zərbə endirib. Bunu keçən həftə Ermənistan televiziyasına müsahibəsində ölkənin sabiq prezidenti Serj Sarkisyan deyib. O, "İskəndər"in istifadə olunması barədə dəqiq məlumata malik olduğunu qeyd edib və müharibə vaxtı erməni qoşunlarının Azərbaycanın neft-qaz kəmərlərinə zərbə endirməli olduğunu, amma cavab reaksiyası almaqdan qorxduqları üçün bunu etmədiklərini bildirib. Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan isə erməni KİV-ə müsahibəsində Serj Sarkisyana cavab verib. Etiraf edib ki, bəli, Ermənistan Azərbaycana qarşı "İsgəndər" raketindən istifadə edib, lakin raket partlamayıb. "Sarkisyan "İsgəndər" raketinin niyə partlamadığı və ya niyə, məsələn, 10 faizinin partladığı barədə sual versin" - deyə, N.Paşinyan Sarkisyana cavabında bildirib. O, həmçinin S.Sarkisyanın "məxməri inqilab"dan sonra silahların alınması proqramında dəyişikliklər edildiyi barədə sözlərini də təkzib edib.*



## Rusiya mediası erməni baş nazirə qarşı



Beləliklə, Nikol Paşinyanın bu fikirlərini Rusiyaya, xüsusilə də Rusiya hərbi sənaye kompleksinə ağır zərbə kimi qiymətləndirmək olar. "İsgəndər" Rusiya istehsalıdır və onu vaxtilə məhz Serj Sarkisyan Rusiyadan alıb. Bu açlqlama ilə Paşinyan bir daha anti-Rusiya mövqeyini sərgilədi və Rusiyanın müasir silahlarından biri olan "İsgəndər"in nüfuzunu yerlə-yeksan etdi.

Artıq Paşinyanın məlum bəyaatı Rusiyada şok effekti yaradıb. Dünya mətbuatının bu məsələdə rus hərbi texnikasının ən güclü silahlarından olan "İskəndər"i yerlə bir etməsi Kremlin dünya silah satışı bazarındakı hakim mövqelərinə güclü zərər yetirəcəyi vurğulanır. Bu səbəbdən, Rusiya mətbuatı iki gündür ki, Paşinyanın tezislərini "çürütmək", günahı erməni hərbiçilərinin üzərinə qoymaqla məşğuldur. Gəlin bir neçə rusiyalı hərbi ekspertlərin fikirlərinə diqqət yetirək. Mənzərə o zaman daha da aydınlaşar.



**İqor Korotçenko, rusiyalı hərbi ekspert:**

- Ermənistan ordusu qeyri-peşəkarlıq səbəbindən sadəcə bu raket sistemlərinin necə işlədiyini bilmir. Rusiya son illərdə Ermənistana ən müasir silahları verib. Buraya hava hücumundan müdafiə vasitələri, radioelektron mübarizə sistemləri, taktiki raket kompleksləri də daxildir. Ermənistan göstərdi ki, onun ordusunun peşəkar hazırlığı çox aşağı səviyyədədir.

**Viktor Litovkin, ehtiyatda olan polkovnik:**

- NATO ölkələri "İskəndər" raketlərinin Kalininqradda yerləşdirilməsindən ciddi narahatlıq keçirir. Paşinyanın sbylədikləri isə sadəcə öz paxırının üstünü örtmək üçündür. Ermənistan baş naziri və hökuməti silahlı qüvvələrin hazırlığı prosesinə yetərincə diqqət ayırmayıb. Bunun nəticəsi isə Ermənistan ordusunun Dağlıq Qarabağda bu yaxınlarda başa çatan hərbi əməliyyatlardakı ağır məğlubiyyətidir.

**Viktor Zavarzin, rusiyalı deputat:**

- Paşinyanın bizim raketlərin effektli olmaması ilə bağlı dedikləri ağ yalandır. Baş nazir bununla ermənilərin onun fəaliyyətindən narazalığının səviyyəsini aşağı salmaq, Dağlıq qarabağdakı ağır məğlubiyyətə görə məsuliyyəti öz üzərindən atmaq istəyir. Bu məğlubiyyətdə həm erməni xalqı, həm də hərbiçiləri günahkardır.

**Viktor Baranets, ehtiyatda olan polkovnik:**

- Rusiyanın raket komplekslərinin effektliyi ilə bağlı hətta qərb analitikləri də çox yüksək fikirdədir. Məsələn, National Interest jurnalı "İskəndər" raketlərini Rusiyanın ən qorxulu silahı adlandırır. NATO hərbiçiləri də hesab edir ki, bu raketlərin taktiki xüsusiyyətləri Rusiyanın lokal hərbi əməliyyatlar teatrında qələbəsini təmin edir. Bu rəyləri Pahinyana göndərmək lazımdır. Müttəfiqlər bu cür hərəkət etmirlər. Bazara vəziyyəti yaradanlar buna görə cavab verməlidirlər.

**Aleksandr Şerin, rusiyalı deutat:**

- Paşinyan özünün siyasi uğursuzluqlarını yalanlarla və əsassız ittihamlarla ört-böasdır etməyə çalışır. Moskva Paşinyanın bu açıqlamasına reaksiya verməyə məcburdur. Belə təhqirlər cavabsız qalmamalıdır.

*✍ Azad*

MÜSAHİB



**Reza Degati,**
Dünya şöhrətli fotoqraf

■ Ermənilər fotoaparatımı yüksək pula alıb, İrəvanın mərkəzində yandırmaq istəyirlər.

■ Qarabağ müharibəsində Azərbaycan insanlarının qarşılaşdığı erməni vəhşiliyi heç bir yerdə olmayıb.

■ Məndə Xocalı soyqırımı ilə bağlı elə sənədlər var ki, heç kəsdə yoxdur.

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



Bakıdan qar görüntüləri...

GÜNÜN SİTATI

*İllərdir Qərb dostlarımıza terror təşkilatları ilə bağlı xəbərdarlıq etdik, bir gün sizə də toxunacaqlar dedik, amma eyni səhvlər təkrarlanır. Nə edirlər etsinlər, millətimizin birliyini və qardaşlığını poza bilməyəcəklər*



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



Yaxşısı budur özüm təmizləyim...

## Bizim üçün "Ana harayı"nı hazırlamaq o qədər də asan olmadı

**Mahmud Rüstəmov,**
"Ana harayı" abidəsinin həmmüəllifi

Köhnə abidənin hündürlüyü 4 metr idisə, indiki abidə postamenti ilə birlikdə, təxminən, 9 metrdir.

▸▸ Səh. 2

STATİSTİKA




**■ 2021-ci ilin yanvar ayının 31-nə Azərbaycanda kredit təşkilatlarında (banklar, BOKT, kredit ittifaqları) əhalinin kreditlərinin həcmi aylıq 0,4% artaraq 14 587,2 mln. manat təşkil edib. Kreditlərin 29,4%-i xarici valyutada olub, bu, aylıq müqayisədə 0,4 faiz bəndi azdır.**

Yanvarın 1-nə kreditlərin dollarlaşması 29,8% təşkil etmişdi ki, bu da 2015-ci ilin yanvar ayından bəri ən aşağı göstəricidir. Beləliklə, dollarlaşma ötən ayda altıillik minimumda qaldı. Statistikanın aparıldığı dövrdən (2006-cı ildən bəri) kreditlərin ən yüksək dollarlaşma səviyyəsi isə 2016-cı ilin yanvar ayında qeydə alınmışdı (51,9%).



▸▸ Səh. 4

## İntihar halları

# Əli Əsədov gürcüstanlı həmkarını təbrik etdi



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İrakli Qaribaşviliyə Gürcüstanın Baş naziri təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, məktubda Azərbaycan ilə Gürcüstanı zəngin ənənələrə malik dostluq və mehriban qonşuluq münasibətlərinin bağladığı vurğulanıb. Azərbaycan-Gürcüstan dövlətlərarası əlaqələrinin və strateji əməkdaşlığının bundan sonra da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində birgə addımların atılacağına ümidvarlıq ifadə olunub.

# Nazirdən Koblarla bağlı açıqlama



**2020-ci ildə Azərbaycanda dövlət satınalmaları əvvəlki ilə nisbətən 14,8% artaraq 6,6 mlrd. manata yaxın olub.**

Bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ”Twitter” hesabında yazıb.

Nazir əlavə edib ki, satınalmalarda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı 2,3 mlrd. manat təşkil edib. “KOB-ların dövlət satınalmalarında daha geniş iştirakı təşviq olunacaq”, - deyə nazir qeyd edib.

# Hikmət Hacıyev Ukrayna XİN başçısının müavini ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ukraynanın xarici işlər nazirinin müavini Vasili Bodnar ilə görüşüb.** Bu barədə Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski ”Twitter” hesabında məlumat yayıb. Qeyd edək ki, Ukrayna xarici işlər nazirinin müavini Vasili Bodnar fevralın 23-dən Azərbaycanda səfərdədir.

# Deputatların bir hissəsi peyvənd olundu



**Milli Məclisin deputatlarının bir hissəsi COVID-19-a qarşı peyvənd olunub. Artıq bir sıra deputatlar birinci mərhələdə peyvəndin ilk dozasını vurdurublar.**

Peyvənd olunan deputatlar özlərini yaxşı hiss edir. Koronavirusu keçirmiş deputatlarda isə antitellər olduğu üçün peyvənd olunmaları hələ ki, tövsiyə olunmayıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib

# Bizim üçün “Ana harayı”nı hazırlamaq o qədər də asan olmadı

***Bu** il ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımının 29-cu ildönümü tamam olur. Qeyd edək ki, 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində mülki azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı qurbanlarının xatirəsinə ehtiram olaraq Bakı şəhərində ucaldılmış “Ana harayı” abidəsini hər il dövlət rəsmiləri ilə yanaşı, minlərlə insan ziyarət edir. Məlumat üçün bildirək ki, paytaxtın Xətai rayonunda, “Xətai” metro stansiyası yaxınlığında ucaldılmış abidənin layihə rəhbəri memar Camal Rəşid Əlizadə, müəllifləri isə Aslan, Mahmud və Teymur Rüstəmovlardır. Xocalı soyqırımının ildönümü ərəfəsində “Həftə içi” qəzetinin müsahibi abidənin həmmüəlliflərindən biri Mahmud Rüstəmovdur.*



**Mahmud Rüstəmov,**
“Ana harayı”
abidəsinin həmmüəllifi

### Dosye

***Mahmud Rüstəmov 1967-ci ildə Bakı şəhərində anadan olub. Böyük bir yaradıcı nəslin nümayəndəsidir. Atası Aslan Rüstəmov və böyük qardaşı Teymur məşhur heykəltəraşdırlar. 1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 1999-cu ildə fərdi sərgisini keçirib və elə həmin ildə “İncəsənət hərəkətdə”, heykəltəraşlıq üzrə beynəlxalq incəsənət festivalında iştirak edib. 2000-ci ildə Azərbaycanın “İlin ən yaxşı heykəltəraşı” nominantı olub. 2005-ci ildə “Kişi və qadın” müasir incəsənət sərgisinin iştirakçısı olub. Mahmudun əl işləri dünyanın bir çox ölkəsində sərgilənir. O, həm Azərbaycanda, həm də xaricdə monumental heykəltəraşlıq işlərinin müəllifidir.***

***- Mahmud müəllim, Xocalı faciəsinin 29-cu ildönümü ərəfəsindəyik. Sizin işlərinizdən biri atanız və qardaşınızla birlikdə Xocalı faciəsinə həsr etdiyiniz “Ana fəryadı”dır. Bu abidənin necə yaranması haqqında danışmağınızı xahiş edirik***

- Hazırda metronun ”Xətai” stansiyası yaxınlığındakı həmin abidənin yerində əvvəl başqa abidə var idi. Yəni, Xocalı soyqırımının baş verməsindən sonra, 1993-cü ildə hazırda heykəlin yerləşdiyi yerdə əlində öldürülmüş körpəsinin cəsədini qaldıran gənc ananın heykəli ucaldılmışdı. O əsər, deyəsən, bəyənilməmişdi. Belə hesab edilirdi ki, əsər tələsik hazırlanıb və həmin dəhşətli hadisələr tam əks etdirilməyib. Bu üzdən abidənin daha fundamental və əzəmətli abidə ilə əvəzlənməsi qərara alındı.

Bununla bağlı 2008-ci ildə Xətai Rayon İcra Hakimiyyəti tərəfindən mövcud abidənin daha böyük abidə ilə əvəz edilməsi qərara alınır və bu məqsədlə yeni heykəlin hazırlanması üçün müsabiqə elan edildi. Biz də - atam, qardaşım və mən bu müsabiqəyə qatılmaq qərarına gəldik və təqdim etdiyimiz layihə qalib seçildi. Beləliklə, yeni heykəlin hazırlanması bizə həvalə olundu.

> “Köhnə abidənin hündürlüyü 4 metr idisə, indiki abidə postamenti ilə birlikdə, təxminən, 9 metrdir

***- Bu işin üzərində nə qədər çalışdınız?***

**- Təxminən 6-7 ay işlədik. Qara qranit və tuncdan hazırlanmış yeni abidə əvvəlkindən ölçüsünə görə xeyli fərqlənir. Məsələn, köhnə abidənin hündürlüyü 4 metr idisə, indiki abidə postamenti ilə birlikdə, təxminən, 9 metrdir. Heykəlin hündürlüyü isə 3,2 m.-dir. Heykəldə evdən gecə köynəyində qaçmağa məcbur olmuş və əlindəki ölmüş körpəni ürəyinə sıxmış ana təsvir olunub. Abidənin pyedstalındakı lövhəciklər də faciə haqqında Azərbaycan və ingilis dillərində qısa informasiya verilir: “26 fevral, 1992-ci il. Xocalıda soyqırımı”. Bundan başqa, postamentə Azərbaycan xalqının faciəsini əks etdirən 3 barelyef, həmçinin Xocalıda qətlə yetirilmiş 613 dinc sakinin adlarını da əlavə etmişik.**

***- Xocalı faciəsi kimi bir hadisəyə əsər yaratmaq çətin olmadı ki?***

- Bizim əl işlərimiz çoxdur, dünyanın müxtəlif ölkələrində sərgilənir. Etiraf edim ki, bu işi hazırlamaq o qədər də asan olmadı. Düzdür, Xətai Rayon İcra Hakimiyyətindən sifariş veriləndə bunun nə qədər ağır və məsuliyyətli iş olduğunu anlayırdıq. Atam Aslan Rüstəmov, qardaşım Teymur və mən eskiz hazırladıq. Çox müzakirələrdən sonra onlardan biri qəbul edildi və bunun üzərində işə başladıq. Təbii ki, bunu işləmək asan deyildi. Bununla bağlı çoxlu şəkil, videolar gəlirdi. Onların əksəriyyətinə baxmaq mümkün deyildi, şəkillər ürəyimizi parça-parça edirdi. Onlara ürəkağrısı ilə baxırdıq. Şəkillərə baxanda düşünürdük ki, bunu törədən insan ola bilməz. Faciəni törədən ermənilər üçün “faşist” sözü də zəif səslənir. Həmin şəkillərdə vəhşiliyin, vandallığın ən ağır formaları əks olunmuşdu. Böyük ağrıdır, çox ağır tarixdir. Bütün bunlara baxmayaraq üzərimizə götürdüyümüz işin məsuliyyətini çox yaxşı dərk edirdik. Kompozisiyada Xocalı gecəsində baş vermiş bütün faciələri və dəhşətləri hərtərəfli əks etdirmək lazım idi, əlində ölmüş uşaq tutmuş qadın isə bu təsvirdə açar rolunu oynadı.

***- İlk işinizi necə, xatırlayırsınızmı? O, nədən ibarət idi?***

- Həmin şəkli atam hələ də emalatxanasında saxlayır. Onda 4 yaşım var idi və kağız üzərində insan çəkməyə çalışmışdım. Atam da mənim və qardaşımın uşaqlıqda çəkdiyimiz çoxlu sayda şəkil var. İndi atamın 88 yaşı var və eyni sevgi ilə nəvələrinin ”əsərlərini” toplayır. İlk heykəltəraşlıq əsərim isə diplom işim - ”Za ratustra” eskizi olub: sonradan onu İçərişəhər aldı.




***- Azərbaycanın işğal altındakı torpaqları düşmən tapdağından azad olunub və hazırda həmin ərazilərdə quruculuq işləri görülür. Sizcə, işğaldan azad olunmuş ərazilərlə bağlı hansısa layihə üçün sifariş gəlibmi?***

- Hələ ki, heç bir sifariş yoxdur. Açığını desəm, sifariş gözləyirik. Atamın 88 yaşı olmasına baxmayaraq, o da bizimlə bərabər emalatxanada çalışır. Ən böyük arzumuz isə məhz Xocalı şəhərində Xocalı soyqırımı ilə bağlı abidə hazırlamaqdır. Bir aya yaxındır ki, bu işin üzərində işləyirəm, layihənin bəzi detallarını da konkretləşdirmişəm.

***- Detalları açıqlamanız mümkündürmü?***

- İndi yox, hələ ki, sirrdir, bu, yaradıcı işdir. Ola bilər ki, sonradan hansısa dəyişikliklər olsun.

***✍ Sevinc***

# 200 metr enində sahədə 7-8 mina xətti var...

## Gündəm

***“Biz hazırda dövlət tapşırıqlarını yerinə yetiririk, əsas işimiz kommunikasiya xətləri keçən ərazilərin minalardan təmizlənməsidir”, - bunu BBC News Ruscaya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina təmizləmə üzrə əməliyyat meneceri Mədəd Məmmədov deyib. O bildirib ki, avtomobil, dəmir yolları, elektrik, qaz xətlərinin çəkilişi kimi işlər üçün əraziləri minadan təmizləyirlər.***




M.Məmmədovun sözlərinə görə, Ermənistan 27 il işğal dövründə ərazilərdə ciddi sayda mina döşəyib, ən çox da keçmiş təmas xətti külli miqdarda minalanıb: ”Ərazinin bu dərəcədə minalanması kommunikasiya xəttinin keçidini mürəkkəbləşdirir. Bizə uzun müddət lazım gəlir ki, müəyyən keçidləri açaq və buna da xeyli qüvvə sərf edirik. Minalanmış sahələrdən keçidləri texnikalardan və canlı qüvvələrdən istifadə etməklə açırıq”.

> “Xəritələrin bizə verilməməsi bizim işimizi həddindən artıq çətinləşdirir və mürəkkəbləşdirir

Mədəd Məmmədov əlavə edib ki, Füzuli rayonunun Şirbəyli kəndi ərazisindən Şuşa şəhərinə qədər yeni çəkilən elektrik xətti üçün təxminən 30 metr enində keçid xətti açmaqla ərazini birbaşa Şuşaya kimi təmizləyiblər. O, həmin ərazilərdən partlamamış hərbi sursatlar, raketlər, raketlərin daşıdığı qadağan olunmuş bombacıqlar tapıldığını deyir.




**Mədəd Məmmədov,**
mina təmizləmə üzrə
əməliyyat meneceri

Ərazilərin təmizləmə işlərinin nə qədər müddət çəkəcəyinə gəldikdə isə Mədəd Məmmədova görə, əvvəlcə minalanma faizi müəyyənləşdirilməlidir. ”Ərazilərin minalanma faizləri dəqiqləşdirilməli və biz bilməliyik ki, neçə faiz ərazi minalanmış sahədir, nə qədər ərazi sursatlarla çirklənmiş sahədir. Hazırda minatəmizləmə ilə bağlı xaricdən qüvvələr gətirilir. ANAMA da hazırda texnologiyaların bu işlərə qoşulması ilə məşğuldur. Bütün ərazilərin minalardan təmizlənməsi müddəti Azərbaycana gələcək qüvvələrdən və o qüvvələrin nə qədərinin işə cəlb olunacağından asılıdır. Ondan sonra bilmək olar ki, ərazi nə qədər müddətə təmizlənib qurtara bilər”, - Mədəd Məmmədov deyib.

Onun sözlərinə görə, işğal altında olmuş yaşayış məntəqələrinin, məsələn, Ağdamın da, Füzulinin də minalanma, təhlükəlilik dərəcələri demək olar ki eyni olsa da, müxtəlif yerlərin təmizlənməsi fərqli müddətə başa gəlir. ”Yaşayış məntəqələri, kolluq, dağlıq ərazilər fərqli metodlarla müxtəlif müddətlərə təmizlənir”.

”Minalar qarışıq döşənib”, - deyən M. Məmmədov qeyd edib ki, tankəleyhinə minalarla, piyadaəleyhinə minalarla, sonra sürpriz qurulmuş minalarla qarşılaşırlar. ”Təkcə o demək deyil ki, ön xətt, təmas xətti minalanıb.

Xeyr, bu ərazilərdə 1992-ci ildən başlayaraq ta bugünkü günə kimi döyüşlər gedib və o ərazilər də vaxtında minalanmış ərazilərdir.

Ermənistan tərəfindən bizə minalanmış ərazilərin xəritəsi verilməyib. Xəritələrin bizə verilməməsi bizim işimizi həddindən artıq çətinləşdirir və mürəkkəbləşdirir.

Onun sözlərinə görə, Ermənistan briqadaları Azərbaycan qoşunları yerini dəyişdikdə həmin ərazilər yenidən minalanıb, möhkəmləndirilib. Ona görə də ön xətdə çox kiçik bir sahə təmizləndikdə oradan minlərlə mina tapılır.

”30 metr enində bir dənə mina xəttinə rast gələndə ordan ən azı 100-150 mina tapıb çıxara bilirik”, - Mədəd Məmmədov deyib. Ön xətdə minalanmış sahədə 7-8 mina xətti ilə rastlaşdıqlarını dilə gətirən mütəxəssis deyir ki, minalanma 27-30 il ərzində aparılıb.

”Hazırda üzərində işlədiyimiz gələcəkdə magistral yol olacaq 200 metr sahədə təmizləmə aparırıq. Təxminən, 200 metr enində sahədə 7-8 mina xətti var ki, orada minlərlə mina var. Hələ də çıxarmağa davam edirik”.

O deyir ki, ANAMA-nın iş prinsipi humanitar qaydalara əsaslanır və mina təmizləmə işlərində BMT standartları izlənilir. ”Biz Türkiyə və ya Rusiya hərbçiləriylə əlaqələr qurmuruq. Əsasən BMT ilə birgə işləyirik.

Təmizlədiyimiz ərazi də hərbçilərin təmizlədiyi ərazilərdən fərqli olaraq humanitar qaydalara uyğun olur.

Hərbçilərin öz standartları var, onların standartları bizim mina təmizləmə qaydaları ilə uyğunlaşmır”, - M. Məmmədov söyləyib. Mütəxəssisin sözlərinə görə, atəşkəsdən sonra Ağdam, Ağcəbədi və Füzulidə polis və hərbçilərin ciddi nəzarətinə baxmayaraq 40-dan çox adam mina partlayışından həlak olub.

***✍ Azad***

## Müsahib

# Rusiya Ermənistan üçün yeni ordu yaradır

**Bu gün Dağlıq Qarabağda baş verənlərlə bağlı çoxlu sual qarşısında qalan ölkə ictimaiyyəti Azərbaycanın bütün ərazilərində öz dövlətinin idarəçilik orqanlarının fəaliyyətinin tez bir zamanda bərpasını gözləyir. Vətən Müharibəsi qələbəsindən sonra erməni həyasızlarının yenidən "Dağlıq Qarabağ respublikası" nağıllarına uyması və Rusiyanın ermənilərin başını sığalaması birmənalı qarşılanmır. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının keçmiş komandanı Fəhmin Hacıyev bir çox məqamlara toxunub.**



**Fəhmin Hacıyev,**
Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının keçmiş komandanı

***- Fəhmin bəy, Xocalı soyqırımının ildönümü yaxınlaşır. Necə hesab edirsiniz, Xocalının qisası alındımı?***

- Ümumən Xocalı hadisəsi dünya tarixində görünməyən tək hadisələrdən biridir ki, milli, dini kimliyinə görə etnik təmizləmə aparılıb və bu etnik təmizləmənin başında Ermənistan separatçıları dayanmaqla bərabər, Rusiya silahlı qüvvələrinin 366-cı alayı iştirak edib. 1992-ci ilin 5 mart tarixində Kiyevdə Pavel Qraçova bu barədə suallar verdim. Ondan soruşdum ki, siz 366-cı alayın işğalçı siyasətinə, soyqırımda iştirakına, alayın hərbi nizamnaməni pozduğuna görə oradakı hərbi rəhbərliyə xidməti cinayəti qaldırmaq fikrindəsizmi? Pavel Qraçov mənə dedi ki, yanlış yoldasınız. Siz Federativ Respublika yaradın, sizdə Talış Muğan Respublikası problemi var, ləzgi problemi, Qarabağ problemi var, sizdə Naxçıvan problemi ola bilər. Ona görə də bu problemləri bizim üzərimizə yönəltməyin. Yəni faktiki olaraq Qraçov I Pyotrun "Parçala, hökm sür" siyasətini təkrarlayaraq Rusiyanın Azərbaycana qarşı niyyətlərini açıq şəkildə ortaya qoymuş bir müdafiə naziri idi. Baxmayaraq ki, sonradan bizim hərəkatçılar, müdafiə nazirimiz bununla dostluq edib, təəssüflər olsun ki, Qraçovun Azərbaycana bu münasibəti ölənə qədər dəyişmədi və Rusiyanın da bu münasibəti 100 illərdir davam edir.

Sözsüz ki, 44 günlük müharibədə biz Xocalıya girib, oranı düşməndən azad edə bilərdik. Ağdamdan hücum başlanılmışdı və Xocalıya tamamilə yaxın məsafədə idik. Xocalıya girilmədi, əməliyyat dayandırıldı. Rusiyanın təzyiqi olduğu bir müddətdə Xankəndinə girmədiksə, Xocalıya daxil olmaqda problem yox idi.

Xocalıda soyqırımı törədildiyi, o şəhərin Azərbaycan əraziləri olduğu bütün dünyaya bəllidir. Əgər biz Xocalıya daxil olub onu hərbi yolla zad etmədiksə, hesab edirəm ki, Xocalının qisası alınmadı, xocalılıların qisası onların şəhid olduqları, məhv edildikləri ərazilər Azərbaycan əsgərinin o torpaqlara ayaq basdığı zaman alınacaq. Xocalıya ədalət gətirilməlidir. Bunun üçün isə Xocalıda beynəlxalq ədalət mühakiməsi olmalıdır, günahkarlar, işğalçı siyasət aparanlar cəzalandırılmalıdır. Xocalı əhalisi öz doğma yurdlarına qayıtmalıdır və orda yaşama hüuqları əldə etməlidir.

***- 44 günlük Vətən Müharibəsindən sonra Dağlıq Qarabağda mövcud atəşkəs vəziyyətini necə dəyərləndirərdiniz? Necə hesab edirsiniz, hərbi qalibiyyətdən sonrakı proseslər regionu istədiyimiz şəkildə nəzarətə götürməyimiz üçün nə dərəcədə imkanlar yaradıb?***

- Dağlıq Qarabağda gedən 44 günlük müharibə Azərbaycan Silahlı Qüvvələrinin və Azərbaycan xalqının böyük tarixi qələbəsidir. Azərbaycan silahlı qüvvələrinin apardığı uğurlu döyüş əməliyyatları dünya tarixinə qızıl hərflərlə yazılacaq əməliyyatlardır. Etiraf etmək lazımdır ki, bu əməliyyatların bu cür uğurlu olmasının əsas banisi qardaş Türkiyənin texnoloji üstünlükləri və İsrail dövlətinin bizə verdiyi texnoloji dəstəyin nəticəsidir. Yəni təəssüflər olsun ki, Azərbaycanda elmtexnikadan çox pomidor inkişafına yol verilib. Belə olan halda da biz müəyyən xərclər hesabına qardaş və dost ölkələrdən texnoloji üstünlüyü əldə edərək müharibəni qazanmağa nail ola bilmişik. Yaxşı ki, Türkiyəmiz, Pakistan və yaxşı ki, dost İsrail dövləti var.

***- Fəhmin bəy, məlum olduğu kimi, noyabrın 10-da üçtərəfli bəyanat imzalandı və bu bəyanata əsasən 3 rayon silah açılmadan geri alındı. Bəyanata əsasən Rusiya sülhməramlıları dərhal Qarabağa yerləşdi. Necə hesab edirsiniz, sülhməramlılar və ermənilər bəyanata nə dərəcədə düzgün yanaşır?***

- Mən 10 noyabr bəyannaməsini bir neçə hissəyə bölərdim. İmzalanan bəyanatda Azərbaycanın maraqlarına xidmət etməyən ən böyük problem atəşin dayandırılmasıdır. Azərbaycan çox uğurlu əməliyyat aparırdı. Bu uğurlu əməliyyatın nəticəsində o 3 rayonun işğaldan azad edilməsi adı ilə bizə verilməsi, əslində isə Kəlbəcərlə Laçının bu gün də Azərbaycanın Silahlı Qüvvələrinin tam nəzarətində olmaması, Kəlbəcərə yolun olmaması, Laçının işğaldan azad edildiyi deyilsə də, onun da tamamilə Rusiyanın nəzarətində olması onu göstərir ki, bu azadlıq yarımcandır. Yarımçıq azadlıq olmadığı kimi, yarımçıq işğaldan azad olunma da yoxdur. Bir neçə kəndin azad olunmasından söhbət gedirsə, bunu belə qəbul etmək olar - Laçının bir neçə kəndi işğaldan azad olunub, əsas hissəsi - şəhərin mərkəzi isə işğal altındadır. Dəhlizə düşüb, Rusiya tərəfindən işğal olunub. Kəlbəcər işğaldan azad olunub, amma Kəlbəcərə yol yoxdur. Bu gün hətta inşaat materiallarını Kəlbəcərə keçirmək üçün rus silahlı qüvvələrinin nəzarəti altında keçirik, hətta bizim maşınlarla daşınmamıza icazə verilmir, deyirlər ki, ermənilərin xətrinə dəyər. Bu hal işğaldan azad olunmuş adlandırıla bilməz. Faktiki olaraq Kəlbəcərin də işğalda olduğu qənaətindəyəm.

Bəyanatın digər hissəsinə, Azərbaycan ərazilərində rus sülhməramlılarının yerləşdirilməsi haqqında qərara gəlincə, bu qərara əsasən Azərbaycanın Dağlıq Qarabağın yuxarı hissəsindəki və Laçın dəhlizindəki suveren hüquqları Rusiyaya təslim edilir. Rusiyaya təslimedilmənin əsasnamələrindən biri budur ki, Rusiyanın özünün sülhməramlı qüvvələr haqqında qanunu var. O qanunun şərtlərində sülhməramlı adı altında tək girdiyi ərazilərdə Rusiya Federasiyasının qanunlarını tətbiq edir. Humanitar və digər məsələlərdə, hətta "idarəetmədə Rusiya qanunlarının tədqiqatı haqqında" qanunun 3-cü maddəsində müddəalar vardır. Buna görə də hesab edirəm ki, ən azından ekspertlər səviyyəsində deyilməli idi ki, belə bir problem yaranacaq.

Bu, yox idisə belə, orada Azərbaycan qanunlarının işləyəcəyi haqqında qətnamə qərarda göstərilməli idi. Əgər orada Azərbaycan Respublikasının qanunlarının işləməsi haqqında qərarda heç bir şey göstərilməyibsə, sözsüz ki, Rusiya Federasiyasının qanunları orda işləyir, Rusiya həmin ərazidə Azərbaycanın suveren hüquqlarını tamamilə mənimsəyərək özünün suveren hüquqlarını tətbiq edir. Orda qanunlar icra edir, Rusiyanın subyektini yaradır.

Laçın Dəhlizindən keçid məntəqəsinin Rusiyanın nəzarətində olması 5 kilometr enində boşluq əmələ gətirir. Buraya isə Azərbaycan tərəfindən nəzarət edilmir. Nəzarət edilməyəcəyi müddətdə də Dağlıq Qarabağın yuxarı hissəsi ilə Ermənistan arasında gedən bütün proseslərdən bizim xəbərimiz olmayacaq. Qarabağa hansı silahlı qüvvələrin yerləşməsindən xəbərimiz olmayacaq. Deyilə bilər ki, atəşkəs olub, müharibə dayanıb. Əslində, Rusiya müdaxilə etməsəydi, bizim Xankəndində də ermənilərin yaşamasını təmin etməklə bərabər Azərbaycanın ərazi bütövlüyünü də bütün ərazilərimizin suverenliyinin təmin olunmasına bir neçə günümüz qalmışdı. Xocavəndi almışdıq, Xocalıya girməyə 1 gün qalmışdı. Belə bir şəraitdə rus qoşunlarının ərazilərimizə girməsi Azərbaycanın maraqlarına ziddir. Fikrimcə, hətta Rusiya zorən də olsa Azərbaycana girsəydi, nəticə bizim xeyrimizə olardı. Birincisi, Beynəlxalq aləm bizimlə olardı. İkincisi, Azərbaycan o vaxta kimi Dağlıq Qarabağın bütün ərazisində öz silahlı dəstəsini yerləşdirərdi. Ruslarla ya toqquşmalıydılar, ya da barışıb bir yerdə işləməli idilər. Rusların hesab edirəm ki, indiki mərhələdə Dağlıq Qarabağda Azərbaycanla vuruşmaq imkanları çox da yüksək deyil. Ona görə ki, birincisi, yolu yox idi, komunikasiyası yox idi, Gürcüstanla yolu bağlı idi, Ermənistanın orda olan qüvvələri zəif idi. Bizim arxamızda böyük bir Türkiyə dövləti var idi. Bu imzadan bir neçə gün qabaq Azərbaycan prezidenti elan etdi ki, əgər bizə kimsə hədəqorxu gəlsə, biz F-16-ları qalıracağıq. Belə bir şəraitə Rusiyanın Dağlıq Qarabağda Azərbaycanla müharibə edəcəyi çox da ağlasığan məsələ deyildi. O vəziyyətdə sözsüz ki, biz orda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmiş bir formanı tətbiq etmiş olsaydıq, beynəlxalq aləm bizi dəstəkliyərdi. Əgər biz orada həqiqətən də etnik təmizləmə siyasəti aparsaydıq, sözsüz ki, beynəlxalq aləm bizim tərəfimizdə olmazdı. Ona görə də hətta müharibə vaxtı da ölkə başçısının dəfələrlə "biz ermənilərin bizim vətəndaşlarla birgə yaşayacağını təmin edəcəyik" bəyanatı çox müsbət hal idi. Ərazilərimizdə suveren hüquqlarımızın tətbiqini həyata keçirmək üçün ciddi addımlar atılma şansını əldən qaçırmışıq. İndi isə Qarabağ bizdən tamamilə uzaqlaşır və Rusiyanın işğalı altındadır. Belə bir vəziyyətdə Azərbaycanın nə edəcəyini, hansı yollara əl atacağı barədə fikirləşmək daha düzgün olardı.

Onu da qeyd edim ki, artıq Ermənistanla Rusiya arasında Qarabağ ərazisində və Naxçıvana yaxın hissədə 102-ci bazanın genişləndirilmiş formasının, yəni paralelinin yaradılması haqqında razılığa gəlinmə mərhələsindədir. Və yaradılarsa,

> *Xocalıda beynəlxalq ədalət mühakiməsi olmalıdır*

Azərbaycanın birbaşa o əraziləri, sərhədləri təhdid altında olacaq.

***- Rusiyanın Krım, Donbas, Donetsk modelinin Qarabağda gerçəkləşmə prosesi gedə bilərmi?***

- Əslində, bunlar bir az fərqli yanaşmalardır. Donetsk, Krım və Donbasda Rusiya işğalı Rusiya-Ukrayna dövləti tərəfindən rəsmiləşdirilməyib. Ona görə də Rusiya dövləti Krıma görə işğalçı dövlət kimi dünya tərəfindən tanınıb və ciddi sanksiyalara məruz qalıb.

Donbasda isə separatçı qüvvələrin Rusiya tərəfindən dəstəklənməsi haqqında Avropa Şurası və Beynəlxalq, daha yeksək səviyyələrdə kifayət qədər geniş qətnamələr vardır. Burada Rusiyanın təsiri altında başqa proseslər gedir. Baxmayaraq ki, Rusiya orda da öz məkirli siyasətini həyata keçirir. Dağlıq Qarabağda isə vəziyyət tamamilə başqadır.

***- Bu gün sülhməramlıların məsuliyyəti daxilində olan Xankəndi şəhərində separatçı rejimin rəhbəri Arutunyanın "DQR"da dövlət dilinin rus dili olması barədə absurd qərarı, eləcə də "DQR"in 33-cü ildönümünün qeyd olunması Rusiyanın regionda hansı siyasəti aparmasını göstərir?***

- Dağlıq Qarabağ erməniləri orda neçə illərdir Rusiyanın dəstəyi ilə qondarma bir qurum yaratmaqla məşğuldurlar. Buna nail olmadılar. İndi isə Kreml orada Rusiya subyektini yaratmaq, nəzarətinə götürmək, ikinci dilin rusdili olması haqqında qərar qəbul edib Azrəbaycan vətəndaşını Rusiya vətəndaşı etməklə Rusiyanın maraqlarını təmin edən ikinci bir plastarım yaratmaq istəyirlər. Bu da Rusiya-Azərbaycan maraqlarına tamamilə ziddir.

***- Bu gün erməni faşistləri Dağlıq Qarabağda yenidən ordu yaratmaqla bağlı hərbi çağırışlar edirlər. Belə çağırışlar Ermənistan üçün nə dərəcədə realdır və bunun arxasında nə dayanır?***

- Yenə də Ermənistan ordusunun yaradılması və Azərbaycanda üçüncü Qarabağ müharibəsinin başlanması fikirləri səslənir. Ümumiyyətlə, sülh müqaviləsi yoxdursa dövlətlər arasında, müharibə hər zaman realdır və ola bilər. Bəzi çıxışlara görə, Ermənistan məhv edilib, beli qırılıb, ayağa qalxa bilmir, müharibə etmək şansı yoxdur. Ermənistanla müharibə aparmırıq ki. Faktiki olaraq ermənilər maşa rolunu oynayır. Rusiya tərəfi ilə müharibə aparırıq. Hər zaman da Dağlıq Qarabağla müharibəni Rusiya ilə aparmışıq. Azərbaycan suverenliyinin əleyhinə olan bir müharibədə iştirak etmişik. Rusiya ona görə Dağlıq Qarabağ müharibəsini yaradıb və hərəkət edir ki, Azərbaycanın müstəqil dövlət kimi inkişafının qarşısını alsın və dünya birliyinə bərabər addımlamasına imkan yaratmasın. Üstəlik, Azərbaycanda özünün idarə etdiyi bir siyasi rejim də yaradıb ki, həm ərazimiz məngənədə olsun, həm də siyasi hakimiyyətimiz Rusiyanın nəzarətində olsun. İndi də Rusiya istədiyi vaxt Dağlıq Qarabağda müharibəni qızışdırmaq imkanına malikdir və bundan ötrü ciddi işlər də görür. O işlərdən biri də ondan ibarətdir ki, bu dəqiqə Dağlıq Qarabağ ərazisində Ermənistan vətəndaşları hərbi xidmət keçməkdədir. Eyni zamanda, həmin ərazidə "Dağlıq Qarabağ ordusu" deyilən bir qondarma qurumun formalaşması prosesi gedir, hansı ki Rusiya onları təchiz edir. Eləcə də, Ermənistandan Dağlıq Qarabağa gələn ordu var ki, onlar hələ də çıxarılmayıb, əksinə, komplektləşdirilir, yenidən təşkilatlandırılır.

Buna da həmin rus ordusu kömək edir. Üstəlik, bu yaxınlarda 102-ci bazanın bir hissəsinin Azərbaycan sərhədlərində yerləşdirdiyi və həmin hissənin şəxsi heyətinin yerli əhalidən ibarət komplektləşdirilməsi məsələsi gündəlikdə var. Bu o deməkdir ki, Rusiya öz hərbi bazasında Ermənistan üçün yeni bir ordu yaradır. Belə bir ordunun yaradılması və Rusiya silahlı qüvvələrinin nəzarəti altında olması, hətta bəzi ekspertlər 5 illərlə, 10 illərlə Azərbaycana ermənilərin hücum etmiyəcəyini söyləsələr də, növbəti müharibənin ola bilməsi fikrini yaradır.

Bəli, mən razıyam, Rusiya ermənilərin arxasında olmasa, bundan sonra 100 il də keçsə, ermənilər Azrbaycana hücum edəsi deyil. Əslində, Dağlıq Qarabağ problem çoxdan həll olunmuşdu. Amma qeyd etdiyim kimi, müharibəni Rusiya edir. Azərbaycana qarşı revanş müharibəsi, Azərbaycana müdaxilə üzərində rus fikirləşir və erməniləri də buna təhrik edir. Ona görə də mən fikirləşirəm ki, Azərbaycan tərəf hər gün və hər saat müharibəyə hazır olmalıdır, ordunu yenidən komplektləşdirməli və reformların həyata keçirilməli, qazilərə hörmət qaldırılmalı, ordu standartları yüksək səviyyədə olmalıdır. Əks halda, biz rus ordusuna dirəniş göstərmək üçün müttəfiqlərimizi müəyyənləşdirməli və münasibətləri yaxşılaşdırmalıyıq. Daha doğrusu, NATO və Avropa dövlətləri ilə isti münasibətlər quraraq, regionda inteqrasiyamızı o mövqeyə yönəltməliyik ki, Rusiyaya qarşı müqavimət göstərmək üçün arxamızda siyasi və hərbi güclər mümkün olsun.

***- Fəhmin bəy, Azərbaycan siyasi camiyəsi, siyasi partiyaları bu vəziyyətə nə dərəcədə adekvat cavab verir?***

- Azərbaycanda siyasi-ictimai partiyaların bu məsələdə indiki proseslərdə adekvatlığı haqqında danışmaq hələ tezdir. Təəssüflər olsun ki, Azərbaycan cəmiyyəti də bir çox məsələlərdə bir çox şeyləri doğru-dürüst hesblaya bilmir, sadəcə olaraq qələbə eyforiyasındadır. Siyasi partiya və ictimai təşkilatlar daha ayıq, daha çevik siyasət yeritməyə borcludular. Azərbaycan xalqının Rusiyanın işğalçı siyasətinə qarşı təşkilatlanmasının və meydanlara atılmasının tərəfdarıyam. Belə olmadığı halda, Azərbaycan xalqı ayaqda olmasa, Rusiya Azərbaycanın maraqlarını tamamilə tapdalayıb keçəcək. Azərbaycan xalqının 90 faizi Rusiyanın Azərbaycanda olmasının, Dağlıq Qarabağda yerləşməsinin tərəfdarı deyil. Və Azərbaycan xalqının mütləq əksəriyyəti Türkiyənin bizim müdafiəmiz üçün Azərbaycanda olmasını istəyir.

Rusiyanın apardığı siyasət Azərbaycanın NATO-ya inteqrasiyasının qarşısını almaqdır. Eləcə də Azərbaycanla Türkiyə arasındakı münasibətlərin genişləndirilməsini dayandırmaqdır. Regionda ciddi mübarizə gedir.

*✍ Tahirə Qafarlı*

## Düşmən yeni hərbi cinayətini etiraf etdi



**Rusiyanın ən böyük mediamaqnatlarından biri, "NewsMedia" mediaholdinqinin rəhbəri Aram Qabrelyanov Telegram kanalında sensasiyalı etirafını yayıb.**

Bu etiraf Ermənistanın terrorçu və beynəlxalq hüququn bütün qaydalarını heçə sayan dövlət olduğunu bir daha sübut edir. A.Qabrelyanov yeni açıqlamasında Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-polkovnik Onik Qasparyanın hərbi cinayətlərindən bəhs edib. A.Qabrelyanovun yazdığına görə, təxminən bir ay əvvəl Moskvada onunla O.Qasparyan arasında saatlarla davam etmiş söhbət olub.

Erməni mediamaqnat yazıb: "Onik Qasparyan mənə dedi: "İkinci Qarabağ Müharibəsinin üçüncü günü Baş Qərargah rəisi qismində "İsgəndər" raketləri ilə Azərbaycanın iki strateji obyektini vurmağa qərar verdim. Biri Bakı-Ceyhan neft kəməri idi, ikincisi də mühüm obyektdi. Baş nazir Nikol Paşinyan qətiyyətlə etiraz etdi. Ruslar elə davrandılar ki, yəni, "öz işinizdir, sizin müharibənizdir".Şuşanın əldən çıxmasından üç gün əvvəl Paşinyandan Şuşanın həndəvərində düşmənin canlı qüvvəsinin böyük sayda toplandığı yerə iki "İsgəndər" atılması ilə bağlı Paşinyandan icazə istədim. Paşinyan yenə qətiyyətlə qadağan elədi və dedi ki, əgər düşmənin bir neçə min əsgərini eyni vaxtda öldürsək, dünya birliyi bizi lənətləyər. Sadəcə, bir dəfə mənə "İsgəndər"dən istifadə etməyə icazə verdilər - Şuşanı vurmaq üçün. İstifadə etdim. "İsgəndər" atılandan sonra şəhərə bir neçə tank yeritdik. İki gün sonra əmr gəldi ki, Şuşanı tərk edək". Xatırladaq ki, N.Paşinyan 1in.am-a verdiyi müsahibəsində İkinci Qarabağ Müharibəsində "İsgəndər" operativ-taktiki raket komplekslərindən Azərbaycana qarşı istifadə olunduğunu, lakin raketin partlamadığını demişdi. Paşinyan onu da vurğulayıb ki, Rusiya istehsalı olan bu raketlər istifadəyə tam yararlı deyillər, həmişə partlamırlar: "Məni tənqid etməyə çalışanlar qoy, özlərindən soruşsunlar ki, "İsgəndər" niyə partlamadı? Və ya niyə 10 faiz partladı?".



## Azərbaycan Avrasiyanın əsas qaz hasilatçısına çevriləcək

**Azərbaycan Avrasiya regionunda üçüncu ən iri qaz istehsalçısına çevriləcək. Bu barədə Qaz İxrac edən Ölkələr Forumunun (GECF) 2050-ci ilədək qaz bazarı üzrə proqnozunda ("Global Gas Outlook 2050") qeyd olunur.**

"2050-ci il üçün qaz hasilatı təxminən 40 mlrd. kubmetrə çatacəq Azərbaycan regionun üçüncü ən iri qaz istehsalçısına çevriləcək", hesabatda qeyd edilir. Proqnoza əsasən, artım Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" və "Abşeron" qaz-kondensat yataqlarının hesabına təmin ediləcək.

Bununla yanaşı, hesabatda qed olunur ki, 2050-ci il üçün reqionda qaz istehsalı 40% artaraq 1,3 trln. kubmetrdən bir gədər az olacaq. Artım reqionun qaz istehsalı üzrə iki liderləri olan Rusiya (78%) və Türkmənistanın (18%) hesabına əldə olunacaq.

## "Twitter" 35 erməni hesabını ləğv edib

**"Twitter" sosial şəbəkəsinin platforma manipulyasiya siyasətini pozduğu üçün Rusiya, Ermənistan və İranla əlaqəli olan 373 hesab ləğv edilib. Təkcə İrandan olan 238 hesab ləğv olunub.**

Rusiyadan olan 100 hesab isə NATO və Avropa İttifaqına qarşı fəaliyyətinə görə bağlanıb. Buna münasibət bildirən Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Moskva hesabların bloklanma səbəblərini dərindən araşdıracaq. Qeyd edək ki, "Twitter" bundan əlavə, Azərbaycan əleyhinə fəaliyyət göstərən 35 erməni hesabını da ləğv etdiyini açıqlayıb. Şirkətdən bildirilib ki, sözügedən hesablar sosial şəbəkənin platforma manipulyasiya siyasətini pozduğunu üçün "Twitter"dən həmişəlik kənarlaşdırılıb.

## Ermənistanda hərbi hissədə qiyam

**Ermənistanda hərbi hissələrin birində məzuniyyətdən xidmətə qayıtmaq istəməyən əsgərlərlə zabitlər arasında qarşıdurma olub.**

Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti bununla bağlı açıqlama yayıb. Bildirilir ki, fevralın 23-də bir qrup hərbçi və onların yaxınları əsgərlərin daimi yerləşdirmə yerlərinə qayıtmasının qarşısını almağa çalışıblar. Nəticədə qarşıdurma baş verib.

Qarışıqlıqdan istifadə edən bir neçə əsgər hərbi hissəni tərk edib. Bölmənin komandanlığı rəsmi araşdırma təyin edib, hərbi polis tərk edilmiş əsgərləri axtarır və onlara qarşı cinayət işləri başlanacaq. Hərbi hissə komandanlığı araşdırmalara başlayıb, fərari əsgərlər hərbi polis tərəfindən araşdırılır. Onlarla bağlı cinayət işi açılıb.

# İntihar halları

**Layihə**

***Son günlər müxtəlif sosial platformalarda intihar hadisələri ilə bağlı xəbərlər tirajlanır. Yayılan xəbərlərdə intihar edən şəxslərin əksəriyyətinin daha çox ailədaxili münaqişə qurbanına çevrildiyi önə çəkilir. Ekspertlər isə hesab edirlər ki, intihar faktları ilə bağlı birmənalı şəkildə fikir yürütmək doğru deyil və bu məsələnin hərtərəfli araşdırılmasından sonra konkret rəyə gəlmək mümkündür. Bəs, görəsən, bu məsələdə daha çox cəmiyyət, yoxsa, ailə günahkardır? Bu problemin aradan qaldırılması üçün hansı addımları atmaq olar? Yeri gəlmişkən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən hafta.az-a verilən məlumata görə, əslində dünya ölkələri ilə müqayisədə Azərbaycanda intihar faktları azdır:***



## Bu məsələdə daha çox cəmiyyət, yoxsa, ailə günahkardır?

“ÜST-ün məlumatlarına əsasən, dünyada ən çox intihar hadisəsi Avropa ölkələrində baş verir. Bu məsələdə ön sıralarda Litva (hər 100 min nəfərə 31,9 intihar), Rusiya (hər 100 min nəfərə 31 intihar) və Belçika (hər 100 min nəfərə 20,7 intihar) kimi ölkələr yer alır. Azərbaycana gəlincə, əhalinin hər 100 min nəfərinə düşən intiharların sayı orta hesabla 5 fakt təşkil edir.

Müqayisə üçün qonşu Gürcüstanda bu say 8,2-dir. Amma bütün bunlara baxmayaraq, belə halların Azərbaycanda mövcudluğu və son illərdə artım tendensiyası onunla fəal və kollektiv mübarizə apatılmasını diktə edir. Bunun üçün profilaktik tədbirlər kompleks və əlaqəli şəkildə aparılmalıdır.İntihar hallarının azalması üçün ilk növbədə maarifləndirmə tədbirləri ilə yanaşı, inam telefonlarının, psixoloji məsləhət xidmətinin inkişaf etdirilməsi, həssas təbəqədən olan insanlarla işləyən mütəxəssislərin bu sahədə məlumatlandırılması, intihar düşüncələrinə malik insanların dərhal psixoloji və psixiatrik xidmətə yönləndirilməsi üçün Dövlət Komitəsinin və UNFPA (BMT-nin Əhali Fondunun) birgə əməkdaşlığı ilə fəaliyyət göstərən (860) qaynar xəttinin xidmətlərindən istifadə etmək lazımdır”.

### Mediadan daha həssas yanaşma tələb olunur

**Qurumdan həmçinin bildirilib ki, aparılan bir çox elmi tədqiqatlara görə, hər bir belə faktın mediada yayılması, geniş müzakirə edilməsi nəticəsində intihar hallarında artım müşahidə olunur: “Bu səbəbdən bəzi ölkələrdə bu barədə məlumatların - intihar edənin şəkilləri, intihar etmə vasitəsi və s. detalların KİV-də yayımlanması tövsiyə olunmur.**

Məsələn, Avstriyada, İngiltərədə belə bir təcrübə var. Odur ki, mediada intihar və zorakılıq hallarının işıqlandırılmasına daha həssas yanaşılmalı, bu məsələlər daima diqqət mərkəzində saxlanılmalıdır. Çünki internet resursları, KİV həm də təbliğat vasitəsidir. Nəzərə alsaq ki, bu gün insanlar sosial şəbəkələrdən, internet resurslarından aktiv surətdə istifadə edir, insanların rifahı üçün bu gün bu vasitələrin pozitivə işləməsi daha faydalı ola bilər. Zorakılıq, ümidsizlik, ruh düşkünlüyü kimi mənfi halları nümayiş etdirən informasiya resurslarının, animasiya, film, serial nümunələrinin geniş surətdə təbliği sahəsində ehtiyatlı davranmaq lazımdır.



**Sahib Məmmədov,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü, hüquqşünas

> *“Əslində intihar psixoloji gərginliklə əlaqəli olan məsələdir*

İntiharlarla mübarizə kimi məsuliyyətli iş əlaqədar dövlət qurumları, din xadimləri, mütəxəssislər, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri ilə yanaşı, vətəndaş cəmiyyətinin qarşısında bir sıra vəzifələr qoyur. İnsanların yaşadığı, təhsil aldığı və işlədiyi sahələrdə nikbin psixoloji ab-havanın yaradılması, uşaq, yeniyetmə və gənclərin maraqlarına uyğun məşğuliyyət sahələrinə yönləndirilməsi kimi tədbirlərin görülməsi insanlarda ruh yüksəkliyinə, bir-birinə inamın artmasına səbəb ola bilər. Bir vacib məqamı da diqqətdən kənarda qoymaq olmaz. Hər intihar hadisəsindən sonra cəmiyyətdə bir çaxnaşma və ittihamlar dalğası yaranır. KİV nümayəndələri, sosial fəal insanlar bir qayda olaraq hansısa konkret şəxsi, ailə üzvlərini və yaxud rəsmi qurumları hədəfə alaraq günahkarı cəzalandırmaq barədə müzakirə aparmağa daha çox üstünlük verməklə, əsil səbəblərin , yuxarıda sadalanan problemlərin diqqətdən kənarda qalmasına “töhfə” vermiş olurlar”.

Qurumda hesab edirlər ki, intihar və onu doğuran səbəblər haqda ciddi araşdırmalara, təhlillərə və müsbət təcrübələrə söykənən yanaşmaların formalaşması üçün səylərin və məlumatlılığın artırılmasına ehtiyac var: “Çoxsaylı problemlər məngənəsində intiharı çıxış yolu kimi qəbul edən insanı xilas etmək üçün preventiv tədbirlərə, həssas münasibətə, xüsusilə ailə üzvlərinin, doğmaların və yaxınların diqqət və qayğısına əsaslanan addımlar atmalı, ictimai müzakirələrdə ehtiyatlı davranmalıyıq.

Diqqəti həm dəyişdirilməsi mümkün olmayan ağır nəticələr haqqında , həm də və daha cox onun baş verməsinə səbəb olan stereotiplərin, bəzən adət-ənənə adı altında cəmiyyətə təqdim olunan zərərli vərdişlərin, hec bir hüquqi və mənəvi cərcivələrə sığmayan zorakı davranışların aradan qaldırılmasına yönəltmək lazımdır. Özü də bu, hər birimizin bir fərd, hamımızın bir toplum olaraq birgə görəcəyimiz bir iş olmalıdır. O zaman həyat hər kəsi bir andaca ondan imtinaya deyil, daha çox onu sevə-sevə yaşamağa ruhlandıracaq”.

### Sosial-iqtisadi aspekt intiharda əsas rol oynamır

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü, hüquqşünas Sahib Məmmədov hesab edir ki, əslində intihar psixoloji gərginliklə əlaqəli olan məsələdir:** “İntiharların əsas səbəbinin maddi çətinlik olması inandırıcı deyil. Bu məsələdə sosial-iqtisadi aspekt əsas rol oynamır. İntihar əsasən psixoloji problemlərlə əlaqəlidir. Bunu bəziləri insanların guya sosial problemlərinin artması ilə əsaslandırırlar. Mən bu fikrin tam əleyhinəyəm. Məsələn, dünyanın elə inkişaf etmiş ölkələri var ki, orada intiharlar, xüsusən də gənclərin intihar halları daha çoxdur. Norveç dünyanın inkişaf etmiş ölkələrindəndir. Bu ölkədə sosial problemlər azdır. Amma Norveçdə intiharlar daha çoxdur. Özü də orada gənc yaşlılar arasında intihar halları çoxluq təşkil edir. Ona görə də bu halların sosial problemlərlə əlaqələndirilməsinin əleyhinəyəm. Ola bilər ki, intihar edən şəxsin hansısa psixi gərginliyi olub və burada sosial problem sadəcə bəhanə rolunu oynayır. Hansısa problemi yaranır, onu həll edə bilmir, çarəsiz vəziyyətə düşür və bu yola əl atır. Amma əslində, intiharın kökündə psixoloji faktorlar durur”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### Ekspert rəyi...

**■ Məsələyə münasibət açıqlayan “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirib ki, son zamanlar həm sosial şəbəkələr, həm mətbuat intiharla bağlı məlumatları dərhal yayır. Onun fikrincə, bu barədə məlumatların gizlədilməsi faktı ola bilməz:**

“Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda hər 100 min nəfərindən təxminə 5-nin intihar etdiyini açıqlayıb. Düşünürəm ki, komitənin açıqladığı statistika realdır. İndiki dövrdə hansısa intihar faktının gizlədilməsi inandırıcı deyil. Ümumilikdə isə intihar statistikası dövrün hadisələrinə uyğun olaraq dəyişir. İntihar elə psixoloji haldır ki, onun motivini şəxsin özündən başqa heç kim bilmir. Keçən il sığınacaqda qadınlar arasında keçirdiyimiz sorğunun nəticələrindən məlum oldu ki, onlar da nə vaxtsa intihar barədə düşünüblər. Yəni bu fikir zaman-zaman istənilən şəxsin ağlına gələ bilir. Bu baxımdan insanlar ilk növbədə neqativ enerjini özlərindən uzaq tutmağa çalışmalıdırlar. Məsələn, son hadisələrdən misal çəksək, intihar edən qız - Sevil Atakişiyeva “Bədbəxt qadınlar klubu” səhifəsinin üzvü olub. Yəqin ki, orda ancaq neqativ şeylər paylaşırlar. İnsan daim mənfi enerji alanda psixologiyası çökür. Adam gəncdir, hər gün orda neqativ hadisələr oxuyur və onların təsiri altından çıxmağa gücü çatmır. Sevil artıq özü psixoloji yardıma ehtiyacı olduğunu hiss etmişdi. Bizdə pulsuz yardım göstərən mərkəzlər varmı? Var, amma onların sayı çox azdır. Əslində Azərbaycanda yaxşı psixoloqlar da çox az saydadır. Hətta elə psixoloqlar var ki, özləri travmalıdırlar, pasiyentləri sağaltmaq əvəzinə, daha da xəstələndirirlər”.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# FHN-dən Modul Tipli Hospitalla bağlı açıqlama

**Fövqəladə Hallar Nazirliyi (FHN) koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan Modul Tipli Hospitalla bağlı yayılan əsassız məlumatlara münasibət bildirib. FHN-in mətbuat xidmətindən hafta.az-a daxil olan məlumatda qeyd edilib ki, nazirliyin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan Modul Tipli Hospitalının qısa müddətdə inşa edilərək istismara verilməsi dünyada COVID-19 infeksiyasının sürətlə yayılması fonunda ölkəmizdə bu virusla mübarizədə Azərbaycan dövlətinin atdığı mühüm addımlardan biri olub. Paytaxtın Zığ qəsəbəsində yerləşən bu Modul Tipli Hospital ən müasir standartlara cavab verməklə koronavirus infeksiyasına yoluxmuş xəstələrin müalicəsində mühüm rola malikdir.**



Təəssüflə qeyd edilib ki, son günlər bəzi sosial şəbəkə səhifələrində və kütləvi informasiya vasitələrində hospitalın fəaliyyəti ilə bağlı həqiqətə uyğun olmayan, böhtan xarakterli məlumatlar yayılmaqdadır. Belə ki, vaxtilə hospitalda çalışmış və müqavilə müddətinin bitməsi və ya işində yol verdiyi nöqsanlar səbəbindən vəzifəsindən kənarlaşdırılan bəzi şəxslər qanunsuz şəkildə işdən azad edildiklərini əsassız olaraq iddia etməklə müəssisənin yüksək rəğbət qazanmış fəaliyyətinə kölgə salmağa çalışırlar. Əsasən də bu ilin yanvar ayı üzrə əməkhaqlarının gecikdirilməsini əsas gətirən bəzi əməkdaşlar bu məsələni başqa istiqamətə yönəltməyə və bununla da ictimai fikri çaşdırmağa cəhd göstərirlər.

Bununla bağlı bildirilib ki, fəaliyyəti dövründə Fövqəladə Hallar Nazirliyi Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan Modul Tipli Hospitalında 2500 nəfərdən çox tibb və qeyri-tibb personalı müqavilə əsasında fəaliyyət göstərib. Bu müddətdə işçi heyəti üçün bütün zəruri və lazımi şərait yaradılıb, onların qanunvericiliyə uyğun olaraq əmək müqaviləsində göstərilmiş tələbləri təmin olunub.

Hospitalda yanvar ayı üzrə əməkhaqlarının gecikməsi ilə bağlı vurğulanıb ki, qanunvericiliyə uyğun olaraq personalın əməkhaqqı müvafiq dövlət qurumlarında razılaşdırıldığından bir qədər vaxt itkisinə səbəb olub. Məsələ həllini tapdığından modul tipli hospitalın bütün əməkdaşları yaxın günlərdə əməkhaqlarını alacaqlar.

Həmçinin qeyd edilib ki, koronaviruslu xəstələrin müalicəsi ilə bağlı son aylar dövlətimiz tərəfindən həyata keçirilmiş kompleks tədbirlər nəticəsində vətəndaşlar arasında bu virusa yoluxma hallarında kəskin azalma müşahidə olunub. Hospitalda xəstə sayının azalması xidmət heyəti ilə qanunvericiliklə müəyyən olunmuş müqavilələrə xitam verilməsinə səbəb olub.

Müqavilələrə xitam verilərkən əməkdaşların peşəkarlığı və nizam-intizamı nəzərə alınıb. Daha yüksək peşəkarlıq nümayiş etdirən əməkdaşlarla müqavilə müddəti yarımştat cədvəli əsasında uzadılıb. Fövqəladə Hallar Nazirliyi Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan Modul Tipli Hospitalın bütün əməkdaşları qanunvericiliyin tələblərinə uyğun olaraq, sosial sığortaya cəlb ediliblər. “Bununla bağlı kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçilərinə bir daha müraciət edərək daxil olan məlumatları yaymazdan əvvəl nazirliklə dəqiqləşdirməyə və həqiqətə uyğun olmayan məlumatları yaymamağa çağırırıq”, - deyə FHN-in məlumatında bildirilib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Türkiyənin “Kayserispor” klubunda növbəti baş məşqçi istefası gerçəkləşibSuper Liqa təmsilçisi Dan Petresku ilə yollarını ayırıb.

---

■ Ekvadorda üç həbsxanada qiyam baş verib, baş verən qiyamlar zamanı 62 məhbus öldürülüb.

---

■ Türkiyədə təhsil işçilərinin COVID-19- a qarşı peyvəndlənməsi prosesinə başlanılıb, Türkiyənin Çorum vilayətində keçirilən vaksinasiya prosesində iştirak edən ölkənin Milli Təhsil Naziri Ziya Selçuka peyvəndin ilk dozası vurulub.

---

■ Raketdənmüdafiə sistemlərimiz hazırda Şimali Koreyaya yönəlib, bunu ABŞ Baş Qərargah rəhbərinin köməkçisi Con Hayten deyib.

---

■ 2020-ci ilin yekunlarına əsasən, Rusiyanın dövlət borcu 5,418 trln. rubl (təxminən 73 mlrd. ABŞ dolları) və ya 39,9% artaraq 18,986 trln. rubla (256,8 mlrd. dollar) çatıb ki, bu da ÜDM-in 17,8%-ni təşkil edib.

---

■ Azərbaycan Milli Elmlər Akademiyasının 400-dən çox əməkdaşı COVİD-19 virusuna qarşı peyvənd olunub, vaksinasiyada yaşı 65-dən çox əməkdaşlar iştirak ediblər.

---

■ Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar yaxın vaxtlarda Gürcüstan və Azərbaycana səfər edəcək, səfər zamanı T.Klaar ölkə rəsmiləri ilə görüşlər keçirəcək.

---

■ Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib, iclasda əfvlə bağlı 150-dən artıq müraciətə baxılıb.

---

■ Azərbaycan qısa dayanmadan sonra ”Şahdəniz” yatağından qaz ixracını bərpa edib, SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.

---

■ İranda ötən sutka ərzində 73 nəfər koronavirusdan (COVID-19) ölüb, bunu İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin sözçüsü Sima Sadat Lari deyib.

---

■ Polşada son sutka ərzində bu ilin əvvəlindən bəri rekord sayda koronavirusa yoluxma halı aşkar edilib, bu barədə ölkənin səhiyyə naziri Adam Nedzelski məlumat verib.

---

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 220 yeni yoluxma faktı qeydə alınıb, 145 nəfər müalicə olunaraq sağalıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

---

■ Ötən il Litvada muzdlu işçilər üçün boş iş vakansiyalarının sayı 16,6 min təşkil edib ki, bu da 2019-cu illə müqayisədə 9,5 faiz azdır, bu barədə məlumatı ölkənin Statistika Departamenti yayıb.

---

■ Qazaxıstanda koronavirusla bağlı idarələrarası komissiyanın iclasında qüvvədə olan məhdudiyyətlərin yumuşaldılmasına dair qəbul edilən qərara əsasən bu il martın 1-dən etibarən tamaşaçılarla idman yarışları, dəfn mərasimləri (salonun tutumunun 30 fazidən çox olmamaq şərtilə) keçirmək, bilyard otaqları, uşaq əyləncə klublarının fəaliyyətinə icazə veriləcək. Bazarların, ticarət mərkəzlərinin və ticarət evlərinin fəaliyyətinə qoyulan məhdudiyyətlər ləğv ediləcək.

## Müsahib

# Erməni vəhşiliyi məşhur fotoqrafın gözü ilə

**Hərbi savaşlar təkcə odlu silahla deyil, həm də informasiya müharibəsi ilə qazanılır. II Qarabağ savaşında Azərbaycan bu üstünlüyü qazana bildi. Düşmənin daim tətikdə olduğunu qeyd edən ekspertlər informasiya müharibəsini qazanmaq üçün daha hazırlıqlı olmağı, proseslərdə daha müştərək iştirakın təmin olunmasını zəruri hesab edir. Bu gün Azərbaycanın Qarabağ həqiqətlərini çəkdiyi fotoşəkillərlə dünyaya çatdıran dünya şöhrətli fotoqraf Reza Degatinin apardığı informasiya müharibəsi də bu qəbildəndir. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Reza Degati çox maraqlı məsələlərə diqqət çəkib.**



Reza Degati,
Dünya şöhrətli fotoqraf

***- Reza bəy, bir fotoqraf olaraq Qarabağ torpaqlarında hansı dəhşətli mənzərə ilə rastaşdınız? Mümkünsə, bu barədə danışın...***

- 1979-cu ildən, bu peşəyə başlayan vaxtdan indiyə qədər çox müharibələri çəkmişəm. Təbii ki, hər bir müharibənin özünün faciələri, dağıntıları olur. Müharibələrdə insanlar ölür, qaçqın, köçkün olur. Müharibə fəlakətdir. Mən I-II Qarabağ müharibəsinə də bu baxışla yanaşırdım. Qarabağ müharibəsini dünyanın başqa müharibələri ilə müqayisə etdim. Gördüm ki, Qarabağ müharibəsində Azərbaycan insanlarının qarşılaşdığı erməni vəhşiliyi heç bir yerdə olmayıb. I Qarabağ müharibəsində Azərbaycan əhalisi məcburi köçkünə çevrildi, erməni silahlıları insanları öz evlərini tərk etməyə məcbur edərdilər. Belə dəhşətli hadisələr Balkanlarda - Sarayevoda belə olmamışdı. Ermənilər qadınlara, uşaqlara işgəncə vermişdilər. Kiminsə evindən sağ qaçmasına imkan vermişdilərsə, onun da ayaqqabılarını, üst-başını soyundurub, qadınların qızıllarını qarət edib qovublar. Qışın şaxtasında ayaqyalın, üst paltarları olmadan evindən çıxarılan uşaqlar, qadınlar, qocaların çoxu yollarda donub ölürdülər. I Qarabağ savaşında Azərbaycanın məcburu köçkünlərinə qarşı edilən erməni vəhşiliyini heç yanda görmədim...

II Qarabağ müharibəsində, ərazilər işğaldan azad olunandan sonra da mən eyni vəhşiliyin o torpağa, tarixi abidələrə, qəbiristanlıqlara, təbiətə qarşı edildiyini gördüm.

Dörd ay olur ki, Azərbaycandayam. Bir ayım müharibədə keçdi, qalan ayları Qarabağın hər yerini addım-addım gəzmişəm. Mən bu dəhşətləri dünyaya göstərmək istəyirəm. İstəyirəm dünya görsün və bilsin ki, bu günə qədər ermənilər onları öz yalanları ilə aldadıblar.

Onu da deyim ki, ermənilərin xaricdə diasporaları çox güclüdür. Onlar öz yalanları ilə dünyanın ümumi fikrini yayındırıblar. Biz onlardan bəlkə də 100 dəfə zəifik. Əgər kimsə bu gün bu işi görürsə, gərək hamılıqla ona dəstək verilsin.

### Onların səsi hələ də qulaqlarımdadır

***- Xocalı soyqırımının ildönümü yaxınlaşır. Bilirik ki, siz Xocalı ilə bağlı mütəmadi sərgilər keçirirsiniz. Xocalını tanıtmaq istəyirik, dünya nəhayət bunu görə bilirmi?***

- Xocalı soyqırımı müasir tarixdə baş verən ağlasığmayan bir faciədir. Müharibə belədir ki, tərəflər vuruşur, ölürlər. Bir də var ki, düşmən düşünülmüş şəkildə gecə girir evlərə, qadınların başına oyun açır, hamilə qadınların qarnını yarır, uşaqların başını kəsir, bu dəhşətdir. Bu 30 ildə nə qədər imkanım var, bu dəhşətləri dünyaya çatdırmışam. Kitablar hazırladım faciə haqqında. Çox sağ olsun, Mehriban xanım bir kitabımın nəşr olunmasına dəstək verdi. Məndə Xocalı soyqırımı ilə bağlı elə sənədlər var ki, heç kəsdə yoxdur.

İllərdir, bu faktları lazım olan yerlərə çatdırmaq üçün müraciətlər edirəm, hələ də bir cavab almamışam. Yenə də ürəyim yanır. O vaxtlar Xocalı qadınlarının qabağıma qaçıb, "Bunları çək, dünyaya göstər", - deyə etdikləri fəryad, onların səsi hələ də qulaqlarımdadır. İlk növbədə onlara görə bu işləri görürəm. Bu, həm bir insan, azərbaycanlı kimi, həm də daha çox bir peşəkar jurnalist kimi borcumdur. Çox təzyiqlər olsa da, bunu edəcəyəm. Təzyiqlər olur, amma biz hadisəni görürüksə, gərək dünyaya çatdıraq. Yenə də mən haqq sözü deyəcəyəm. İki gündən sonra bir qrup xarici jurnalist Ağdama gedəcək. Xahiş olunub ki, ora gedib sərgi keçirim və bunları göstərim.

### Ayağımdan tutub aşağı çəkməsinlər

***- Dediniz ki, əlinizdə çox qiymətli şəkillər var və bu faktları dünyaya göstərmək istəyirsiniz. Bununla bağlı təklifləriniz olsa da, hələ ki, cavab verilməyib. Həmin reaksiya haradan verilməlidir?***

- Mən Fransa vətəndaşıyam. Bütün müsahibələrimdə deyirəm ki, bu işi yüksək səviyyətə görməyim üçün mənə dəstək lazımdır. Hamı da əlini küreyimə vurub deyir ki, siz nə gözəl insansınız, sizin kimi gözəl insan yoxdur, siz haqqı dünyaya çatdırırsınız. Mən də deyirəm ki, çox sağ olun, amma bu işləri tək təriflə həll etmək olmaz. Fransada işimi aparan işçilərim var, onlara da maaş verirəm. Birlikdə bir sıra layihələr hazırlamışdıq. Ermənilər o qədər təzyiq elədilər ki, onları əlimizdən çıxardılar. Bir neçə xarici ölkədə sərgi açmaq istəyəndə ermənilər imkan vermədilər, dağıtmaq istədilər. Mənə qarşı bu cür təzyiqlər ola-ola yenə də bir azərbaycanlı kimi bu işləri apırıram, yəni hər kəs öz ürəyini qoymalıdır. Siz bir adam tapın ki, 5 ay Fransada bütün layihələri buraxıb gəlib bu işlə məşğul olsun. Hazırda bu işimi özüm tək apırıram. Erməni olsaydım, erməni diasporası nə lazımdır mənim ayağına tökəcəkdi və buradakı faktları böyük pullar xərcləyib dünya televiziyalarında yayacaqdı. Mənim isə ayağımdan tutub aşağı çəkməsinlər, buna da razıyam.

### Məni pantürkizmdə günahlandırırlar

***- Reza bəy, dediniz ki, erməni diasporası çox güclüdür. Öz yalanlarını dünyaya göstərmək üçün nə qədər dəridən-qabıdan çıxır, toparlanırlar. Bəs Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında xaricdə lobbimiz, diasporamiz nə dərəcədə fəliyyət göstərə bilir?***

- Xaricdə iki cür azərbaycanlı var: bir İran - cənubi azərbaycanlılar, bir də Azərbaycan -şimali azərbaycanlılar. Şimaldan olanlar ya tələbədir, ya da ki, böyüksəviyyəli işlərdə çalışmırlar. Cənubi azərbaycanlılar isə Azərbaycana ürəkyanğısı ilə baxmırlar. Onlar dünyada olan o 40 milyon azərbaycanlının arasında yoxdur.

Baxırsan ki, Cənubdan olan azərbaycanlılar da mənə təzyiq edirlər ki, siz niyə Azərbaycana kömək edirsiniz? Məni pantürkizmdə günahlandırırlar; gah Fransadan, gah İrandan mənə təzyiqlər var. Onu da deyim ki, müharibə başlayan ilk həftədə Azərbaycan diasporasından olan bir neçə azərbaycanlı ofisimlə əlaqə saxlayıb dedilər ki, biz bir qrup azərbaycanlıyıq, Moskvada milyonlarımız var. Biz istəyirik ki, Reza bəyin Qarabağda, Xocalıda çəkdiyi fotolarından sərgi düzəldək, gərək dünya bunu görə. Dünyanın müxtəlif yerlərində sərgi təşkil edə bilərik. Bu adamlar bizim uşaqları bir ay işlətdilər, layihələr yazdırdılar, bir aydan sonra bunlardan xəbər olmadı. İşçilərimə 1 ay işlədiklərinə görə öz cibimdən maaş verməli oldum.

Bu da Azərbaycanın xaricdə olan diasporası. Lazım olsa bunların e-maillərini dünyaya çatdırıraram. Qoy biri bunlardan soruşsun ki, siz niyə Rezanın adamlarını işlədib axırda e-mailə cavab belə verməmisiniz.

> **"** Ermənilər fotoaparatımı yüksək pula alıb, İrəvanın mərkəzində yandırmaq istəyirlər

> **"** Qarabağ müharibəsində Azərbaycan insanlarının qarşılaşdığı erməni vəhşiliyi heç bir yerdə olmayıb

> **"** Məndə Xocalı soyqırımı ilə bağlı elə sənədlər var ki, heç kəsdə yoxdur

### "İndi ermənilər, onların havadarları yaralı heyvan kimidir"

***- Qarabağda ermənilərin törətdiyi vəhşiliyi öz sərgilərinizlə dünyaya göstərirsiniz. Dünya ictimaiyyəti, beynəlxalq aləmin mövqeyində nə dəyişikliklər baş verir?***

- Müharibədə aparılan mübarizənin əsas istiqamətlərindən biri də informasiya müharibəsidir. Müharibə gedən zaman Prezident dünya mediasına çox gözəl müsahibələr verdi və Azərbaycan həqiqətlərini dünyaya çatdırdı. O vaxta qədər bütün dünyada - Avropada, Amerikada yaşayan ermənilərin səsi daha çox eşidilirdi. Dünyadakı ermənilər və havadarları bizə yazıq, zəif, torpağı işğal olunan, 1 milyondan çox insanı qaçqın salınan bir məmləkət kimi baxırdılar. Düşünürdülər ki, Minsk qrupu təşkilatı 30 ildir bunları tovlaya-tovlaya aparır, 20 il bundan sonra da belə davam edəcək, axırda hər şey ermənilərə qalacaq. Azərbaycan birdən ayağa qalxdı və gücünü göstərdi. Göstərdi ki, həm güclü Prezidenti var, həm güclü ordusu. Rəhbərlik yüksək iradə ortaya qoydu və müharibəni uddu. İndi ermənilər, onların havadarları yaralı heyvan kimidir. Yaralı heyvan isə daha təhlükəli olar. İndi onlar bu yaralı halları ilə daha kəskin formada informasiya müharibəsinə başlayıblar. Məsələn, ermənilər bir film çəkib: orada guya iki Azərbaycan əsgəri erməni qəbrini təpikləyib. Ermənilər bu filmi elə bir televiziya, qəzet, sayt qalmayıb ki, orada yayınlamasınlar. Burada mən 4 aydır, bəlkə də dağıdılmış Azərbaycan qəbirlərinin fotosunu çəkmişəm. Həmin qəbirlərin hamısını ermənilər dağıdıb, qəbirdəki insan sümükləri, kəllələri yerin üstündə atıblar. Hələ də bu faktları dünya kanallarında, qəzetlərdə, saytlarda lazımi səviyyədə yayınlaya bilmirəm. Bu məsələyə ciddi diqqət ayırmalıdır.

***- Niyə edə bilmirsiniz, maliyyə dəstəyi azdır?***

- Səbəb tək maliyyə dəstəyinin olması deyil. Bu faktların dünyaya çatdırılması təşkilatlanmış, nizamlı şəkildə aparılmalıdır. Gərək biri çağırıb mənə deyə ki, siz belə bir önəmli iş görürsünüz, gəlin bu faktları dünyaya yayaq və bunun üçün ortaq yollar tapaq. Mən özüm də dünyada ən böyük informasiya müəssisəsinin müşaviriyəm. Bu işləri necə qurmağı bilirəm, 40 ildir bu işi görürəm. Görünən odur ki, əlimizdəki faktları lazımi səviyyədə dünyada yaya bilmirik. Bu istiqamətdə informasiya müharibəsini qazanmaq üçün vahid informasiya mərkəzində toparlanmaq və informasiya sahəsində qazanmaq üçün bütün səylərin birləşməsinə ehtiyac var. Araşdırma aparıb dünyada Azərbaycan həqiqətlərini tanıyan, Azərbaycana ürəyi yanan adamları müəyyən edib onları bir bir yerə yığa bilərlər. Bəlkə o bir nəfərdir, bəlkə də 1000 nəfər.



### "Neçə dəqiqə o kəlləyə baxa-baxa ağlamışam"

***- İşğaldan azad olunan ərazilərimizdə fotoşəkillər çəkərkən sizi təsirləndirən, ağrıdan anlar oldumu?***

- Sağ olsun Prezident, Prezident Aparatı, mənə rayonlara səfərlər etmək üçün bir maşın verib. Otel məsrəflərini ödəyirlər. Çox sağ olsunlar, buna görə məmnunam.

Bir sürücüm var, o, hər rayonda, hər çəkilişimdə mənimlədir. Nələri gördüyümü, hansı hisslər keçirdiyimin şahididir. Bir dəfə qəbiristanlıqda çəkiliş aparırdım. Orada insan sümüklərini, kəllələri ermənilər qəbirdən çıxarıb qırağa atmışdılar. Yəqin ki, insanların başsümüklərini çıxarıb qızıl dişlərini axtarıblar. Yerdə çoxlu kəllə sümükləri var idi. Bunu görəndə halım xarab olmuşdu, çünki belə şeyləri görməmişdim. Birdən uzaqdan balaca bir kəllə gördüm, görünür ki, həmin adam gənc olub. Yaxınlaşdım bunu çəkməyə, gördüm ki, başın skletinin yanında sarı uzun hörük var. Bunu görəndə çox pis oldum. Neçə dəqiqə o kəlləyə baxa-baxa ağlamışam. Sürücü mənə yaxınlaşıb deyir ki, yarım saatdır ağlayırsınız, qorxdum ki, ürəyiniz partlayar. Bu hadisə məni ağrıtdı. Bir də bu tarixi abidələrin dağıntılarını görəndə ürəyim dözmədi. Ermənilər o abidələrdə, məscidlərdə donuz saxlayıblar. Həmin kənddə məsciddən bir qədər aralıda donuz saxlamağa bir tövlə var imiş. Ermənilər həmin məscidi təhqir etmək üçün donuzları orada saxlamışdılar.

### "Ermənilər 3-cü texnoloji müharibəyə hazırlaşırlar"

***- Azərbaycan cəmiyyətinə, bu prosesdə iştirak edə biləcək qurumlara, diasporlara, imkanlı insanlara nə təklif edirsiniz? Həmin mərhələdə hansı anı buraxmamalıyıq?***

- Burada Diaspora Komitəsinin rəhbəri ilə 2-3 dəfə görüşmüşəm. O, gənc və istedadlı adamdır. Onların o cür böyük işləri görmək üçün İnformasiya Komitəsi yaratmağa imkanları yoxdur.

Bu gün Kaliforniyada bütün informasiya texnologiyalarının rəhbərləri bir küçədə yaşayır. Onların arasında çoxlu erməni var. Məndə xəbər var ki, ermənilər 3-cü texnoloji qrup yaradaraq, 3-cü texnoloji müharibəyə hazırlaşırlar. Gördülər ki, müharibədə drona uduzdular, indi onlar başlayıblar. Ermənilər öz yalanlarını yayırlar. Mənim də öz halımıza yazığım gəlir ki, bizdə ermənilərin vəhşiliyini göstərən bu qədər faktlar ola-ola az göstərə bilirik. Yolunu göstərəndə heç kəs reaksiya vermir. Əgər erməni olsaydım, indi məni dünyanın başına aparardılar ki, gəl işlə.

***- Ermənilər sizə iş təklif etdilərmi?***

- Sosial şəbəkədə aparatımı satışa çıxardığımı yazanda, 3 nəfər erməni almaq istədiyini yazıb. Biri deyib ki, guya aparatı Qarabağda fotolar çəkdiyinə görə alıb İrəvanda muzeyə qoymaq istəyir. Sonra bizim işçilərimizi söyüb, gülüb deyib ki, istəyirəm onu alıb İrəvanın mərkəzi meydanında yandırım. Burada bir həftədir deyirəm ki, aparatı satıb pulunu YAŞAT fonduna köçürmək istəyirəm, bir nəfər də reaksiya verməyib, yaxud hər hansı təkliflə mənə müraciət etməyib.

Ola bilməz ki, bu işi 30 ildir dəstəksiz görəm. Düşünürəm, bir gün gələr, kimsə gəlib məndən soruşar ki, sizə hansı köməyimiz, dəstəyimiz lazımdır? Mən 4-5 aydır Qarabağı gəzə-gəzə dəhşətli məkanlar gördüm. Fotolarım dünyanın hər məhkəmələrində əks olunmuşdur. Bu gün ölkədə kimisə qınamaq da olmur. Müharibə gedir, qazilər, şəhidlər var. Ona görə də elan elədim ki, aparatımı satıb pulunu YAŞAT fonduna köçürəcəyəm. Deyirəm, gəlin bu barədə yazaq, hələ də bir xəbər yoxdur.

***- İşiniz bitdimi ki, aparatınızı satırsınız?***

- Bu işi ömrümün sonuna kimi görəcəyəm. Dörd aydır minaların arasında gəzib o fotoları çəkirəm. Məsələ bu deyil. Hələ ki, işlər gedir, görək necə olacaq.

***- Neçəyə satırsınız?***

- Bir manata satıram. Bilirsiniz, istəyirəm onu hərraca qoyam görüm, Azərbaycanda kimdir Qarabağı, Xocalının şəkillərini çəkən, aparatı dəyərləndirən insan? Bilmək istərdim ki, burada bizim mədəniyyəti qiymətləndirən kimlər var.

***- Qarabağda çəkilən şəkillərlə müqayisədə o aparata qiymət vermək çətin olacaq...***

- O biri aparatları da satmaq istəyirəm. Cibi boş adamam. Düşünürəm ki, bir vaxt gələcək, elə bir adam tapılacaq ki, zəfərdən sonra Qarabağın faciəsini görən, çəkən o aparatdan və şəkillərdən ibarət bir muzey düzəldəcək. Deyəcək ki, bu əşyalar Qarabağ savaşlarını, işğal faktını çəkən Reza Degatinin əşyalarıdır. Məncə bu, gələcək insanlar üçün maraqlı olacaq.

✍ Tahirə Qafarlı



## Qazilərimizin müayinəsi davam edir

**"YAŞAT" Fondunun dəstəyi ilə ölkəmizə gələn türkiyəli həkimlər Vətən müharibəsində ağır yaralanmış qazilərimizin müayinələrini davam etdirirlər.**

Bu barədə hafta.az-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Həkim heyətinin tərkibində ortoped, beyin cərrahı, ümumi cərrah və digər ixtisaslı həkimlər var. Xatırladaq ki, "YAŞAT" Fondunun dəstəyi, Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə Respublikasından həkim heyəti ölkəmizə gəlib.

## Bakıda çadır sığınacaqları quraşdırılıb

**Bakıda yaşayış yerləri olmayan insanlar üçün çadırlar quraşdırılır. Bu barədə hafta.az-a Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib.**




Qeyd olunub ki, bu, İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilir. Memoranduma əsasən, şəhərin müxtəlif 4-5 yerində xüsusi çadırların quraşdırılmasına başlanılıb:

"Hava şəraiti ilə əlaqədar isinməyə ehtiyacı olanlar burada həm isti çay, həm yemək yeyə, həm də dincələ biləcəklər. Bunun üçün bütün şərait yaradılacaq. Çadırlar qarlı hava şəraitinin bütün günlərində açıq olacaq. Bu işə nəzarəti RİİB-in könüllüləri və icra hakimiyyətinin əməkdaşları edəcək".

## Koronavirusdan ölüm halları son həftə ərzində 20 faiz azalıb

**Fevralın 15-dən 21-dək dünyada koronavirusa yoluxma halları əvvəlki həftə ilə müqayisədə 11 faiz, ölüm halları isə 20 faiz azalıb. Virusa yoluxmada, artıq ardıcıl olaraq altıncı həftədir azalma müşahidə edilir.**

Bu faktlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Cenevrə şəhərində dərc olunan həftəlik epidemioloji bülletenində yer alıb. "Altıncı həftədir ki, dünyada yeni yoluxmalar ardıcıl olaraq azalır. Ötən həftə ərzində 2 milyon 457 min 26 yoluxma və 66 min 359 ölüm halı qeydə alınıb. Fevralın 21-nə olan məlumata əsasən, indiyə qədər dünya üzrə koronavirusa 110 milyon 763 min 898 nəfər yoluxub, 2 milyon 455 min 331 nəfər həyatını itirib", - deyə sənəddə bildirilir.

ÜST-nin məlumatına görə, yoluxma hallarının azalması ən çox Şimali və Cənubi Amerikada (19 faiz), Qərbi Sakit okean regionunda (9 faiz), Avropada (7 faiz) və Şərqi Aralıq dənizi regionunda (7 faiz) müşahidə edilib. Həmin regionlarda ölüm hallarında da azalma qeydə alınıb: müvafiq olaraq 23, 6, 19 və 3 faiz. Koronavirusdan ölüm hallarının sayı Afrikada 20 faiz, Cənub-Şərqi Asiyada isə 6 faiz aşağı düşüb.

# Hamımızın istəyi birdir: XOCALIYA ƏDALƏT

## Müsahib

**Xocalı soyqırımının növbəti ildönümünə sayılı günlər qalıb. Dünyanın bir çox ölkəsində soydaşlarımız, diaspor qurumlarımız anım tədbirləri keçirirlər. Bu istiqamətdə ən çox fəallığı ilə seçilən təşkilatlardan biri də Belçika-Azərbaycan Dostluq Cəmiyyətidir. Budəfəki müsahibimiz cəmiyyətin sədri Ayhan Dəmirçidir. Ayhan bəylə pandemya şəraitində Xocalı soyqırımının tanıdılması işlərindən danışdıq:**



**Ayhan Dəmirçi,**
Belçika-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

***- Xocalı soyqırımının növbəti ildönümü ilə bağlı hansı tədbirləri keçirməyi planasdırırsınız? Builki tədbirlərinizi əvvəlkilərdən fərqləndirən hansı məqamlar olacaq?***

- Bu il, təbii ki, digər illərdən fərqlidir. Məlum səbəblərdən dünyanın, demək olar ki, hər yerində hər bir şey adət etdiyimizdən fərqli gedir. Belçikadakı durum barədə də geniş yazmaq istəmirəm, bu barədə həm mətbuatdan məlumat almaq olar, həm də dünyanın hər bir yerində, təxminən, eyni qaydalar hökm sürür. Təbii ki, Xocalı bizim yaralı yerimizdir. Bu il də Xocalı soyqrımını anmaq, yaşadığımız ölkənin insanlarına bunu anlatmaq üçün tədbirlər keçirtməyi düşünürdük. Təəssüf ki, yuxarıda qeyd etdiyim səbəblərdən bunu istədiyimiz kimi edə bilmədik. Sizin də qeyd etdiyiniz səbəblərdən çoxtərəfli görüşlər, kütləvi tədbirlər keçirmək məhdudlaşdırılıb. Belçikada yaşayan bir neçə gənc soydaşımızla birlikdə oradakı Ham şəhərindəki "Qarabağ atı" abidəsini ziyarət etdik və abidənin önünə gül dəstələri qoyduq. Hazırkı ağır durumda "Qarabağ atı" abidəsinin önünə azsaylı soydaşlarımızla yığışmaqla, bir növ, birlik mesajı da vermək istədik ki, yəni heç bir çətin vəziyyət Xocalı soyqrımını bizlərə unutdura bilməz.

Bundan başqa isə yalnız internet üzərindən müxtəlif dövlət qurumlarına, təşkilatlara emaillər, müraciətlər göndərmək imkanlarımız oldu. Keçirəcəyimiz tədbirlər, təbii ki, var, ancaq onları da internetin xidmətlərindən istifadə edərək edəcəyik. Belə ki, onlayn konfrans keçirməyi düşünürük. Konfransı facebook üzərindən canlı yayımlamağı düşünürük ki, beləliklə, onun gedişini çoxsaylı izləyicilərin olmasını təmin edək.

***- Budəfəki anım ili Azərbaycanın qələbəsindən sonraya təsadüf etdi. Dünyaya mesajlarımızı məğlub yox, qalib xalq kimi çatdırırıq. Bununla bağlı sizin də fikirlərinizi öyrənmək istərdik...***



> *Hər kəsin özünün doğru bildiyi bir yol var ki, bu da bəzi məqamlarda müsbət, bəzən isə mənfi dəyərləndirilə bilər*

- Doğru qeyd etmisiniz, bu il qələbəmizdən sonra ilk dəfədir, Xocalı soyqrımını anacağıq. Təbii ki, Xocalı soyqrımını heç vaxt unuda bilmərik, Xocalıda vəhşicəsinə qətlə yetrilən insanları hər zaman xatırlayacağıq və bu faciəni dünya ictimayətinə çatdırmaq üçün bacardığımız nə varsa edəcəyik. Budəfəki əhvalımız da fərqlidir, indi daha inamlıyıq. Əgər illərsonra yenidən Qarabağımıza qovuşa bildiksə, demək, mübarizə əzmi olduqda çox şeyə nail olmaq olar, həmçinin də Xocalını dünyaya tanıtmaq. Həm də dünya son müharibədə Azərbaycan adını daha çox eşitdi və bir daha Qarabağın kimin olduğunu, Azərbaycan dövlətinin, xalqının əzmini gördü. Qeyd edi ki, bizim də əzmimiz artıq bir başqadır və ümid edirəm ki, bu əzmlə irəliləyən illərdə daha çox nəticələr əldə edəcəyik.

***- Diaspora-dövlət münasibətləri və Xocalı soyqırımının tanıdılması. Nələr dəyişib keçən bir il müddətində?***

- Bir ildir ki, məlum virus səbəbindən bütün sahələrdə fəaliyyət göstərmək çətinləşib, həmçinin də diaspor sahəsində. Bütün dövlət və ictimai təşkilatlarla vacib olmadıqda görüşmək də mümkün olmur. Tədbirlərin keçrilməsi məhdudlaşdırılıb. Buna baxmayaraq ötən bir il ərzində yerli mətbuatda çıxışlar etməyə cəhd etdik və müəyyən qədər də istədiyimizə nail ola bildik. Təbii ki, daha çox işlər görmək istəyərdik, ancaq məlum səbəblər buna mane oldu. İnanıram ki, tezliklə dünya öncəki halına geri dönəcək və biz də öz fəaliyyətimizə daha sərbəst davam edə biləcəyik.

***- Avropadakı diaspor qurumlarımız Xocalı soyqırımı və digər milli məsələlərdə nə dərəcədə birlik nümayiş etdirə bilir? Müsbət və çatışmayan məqamlar hansılardır?***

- Xocalı elə bir məsələdir ki, burada ayrılıq söhbəti ola bilməz. Bu məsələdə hamı eyni məqsədə xidmət etməlidir. Hamımızın istəyi birdir: Xocalıya ədalət. Bu özü müsbət haldır ki, bu məsələdə fikir ayrılığı yoxdur. Təbii ki, hər kəsin özünün doğru bildiyi bir yol var ki, bu da bəzi məqamlarda müsbət, bəzən isə mənfi dəyərləndirilə bilər.

***- Hər il Azərbaycandakı Xocalı ailələrinə yardımlar edirsiniz. Bu il də planlarınızda bu cür aksiyaların təşkili varmı?***

- Açığı, hər vaxt çalışmışıq ki, yardımlarımız barədə danışmayaq. Sadəcə, bizə inanan insanların fəaliyyətimiz barədə məlumatlarının olması, digər dostları da yardım kampaniyalarına həvəsləndirmək məqsədilə bəzən işlərimizlə də bağlı danışmaqdan çəkinmirik. Bu günə qədər həm Xocalıdan olan ailələrə, həm şəhid ailələrinə, həm imkansız ailələrin övladlarına, məktəblilərə əlimizdən gələn qədər yardım etmişik və bu yardımları etməkdə də imkanlarımız daxilində davam edəcəyik.

✍ *Azad*

# "Ağıllı" layihələr üçün strateji planlar hazırlanır

**Azərbaycanın azad edilmiş ərazilərində "ağıllı" layihələrin reallaşdırılmasında 5G texnologiyalarına üstünlük verilir. Bunu Trend-ə müsahibəsində Azərbaycan İnnovasiyalar Agentliyinin əlaqələndiricisi Elman Kərimli deyib. Onun sözlərinə görə, 5G texnologiyası ilkin olaraq "Smart City" və "Smart Village" kimi iri layihələr üçün hazırlanıb:**



"4G antenlərində fərqli olaraq 5G antenaları kiçikdir və modemə bənzəyir. Bu texnologiyanın quraşdırılması asandır, sürəti isə dəfələrlə yüksəkdir. Fikrimcə, simsiz internetin siqnalının alınmasında qüsurların qeydə alınacağı bəzi ucqar yerlərdə kabel internet bağlantısı zəruridir. "Ağıllı" layihələrin böyük əksəriyyəti 5G texnologiyalarına əsaslanacaq".

E.Kərimli bildirib ki, bu layihələrin icrasını alternativ enerji ilə başlamaq lazımdır: "Layihələrin bu enerji növləri vasitəsilə reallaşdırılması həmin regionun ətraf mühiti üçün daha təhlükəsizdir". O bildirib ki, regionda dövlət sektorunun, kiçik və orta biznes sektorunun fəaliyyətinin avtomatlaşdırılması üzrə strateji planlar hazırlanmış Azərbaycan İnnovasiyalar Agentliyinin nümayəndəsi əlavə edib ki, bu layihələrin reallaşdırılmasının əsas ideyası problemlərin həllindən, təbii ehtiyatlara və dövlət vəsaitlərinə qənaət olunmasından ibarətdir: "Kənd təsərrüfatının avtomatlaşdırılması ilə yanaşı, bu ərazilərdə turizm sektorunun elektronlaşdırılması da zəruridir. Bu regiona səfər edən turistlər elektron kartlar əsasında onlar üçün daha çox maraq kəsb edən yerlərdə hərəkət edə bilər".

# DOST mərkəzləri 300 mininci vətəndaşa xidmət edib




**Yasamal rayon sakini Gülnarə Hüseynova 1 saylı Bakı "DOST" Mərkəzinə sağlamlıq imkanları məhdud uşaqlara sosial müavinət və təqaüdün təyin olunması xidməti ilə əlaqədar üz tutub və bu, "DOST" mərkəzlərində 300 mininci vətəndaş müraciəti kimi qeydə alınıb.**

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentindən hafta.az-a verilən məlumata görə, bu münasibətlə keçirilən tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov öz çıxışında bildirib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq əhaliyə xidmətlərin vətəndaş məmnunluğuna uyğun yüksək səviyyədə təşkili DOST Agentliyinin əsas fəaliyyət prinsipidir. O, mərkəzlərin xidmətlərindən faydalanan vətəndaşların sayının artdığını və onların DOST mərkəzlərində göstərilən xidmətlərdən razı qaldığını diqqətə çatdırıb. F.Məmmədov 300 mininci vətəndaşa agentlik adından təşəkkürnamə və simvolik hədiyyələr təqdim edib. G.Hüseynova DOST mərkəzində göstərilən xidmətlərdən razı qaldığını deyib, dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ və şəffaf təşkil olunduğuna görə təşəkkürünü bildirib. 2019-cu ilin mayından etibarən Bakıda 3 DOST mərkəzi açılıb və paytaxtın 8 rayonu (Yasamal, Səbail, Qaradağ, Xəzər, Pirallahı, Nizami, Sabunçu, Suraxanı) həmin mərkəzlərin xidmətləri ilə əhatə olunub. Vətəndaşların bu xidmətlərdən məmnunluq səviyyəsi 97 faizdir.

# Meyiti tapılan 5 nəfərdən daha biri AzTU-nun tələbəsi imiş

**Fevralın 23-də saat 14 radələrində Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 1-ci Yaşayış Massivinin 1-ci Döngə, ev 29 ünvanında yerləşən fərdi yaşayış evində meyiti aşkarlanan 5 nəfərdən daha biri - Allahverdiyev Şikar İdris oğlu da Azərbaycan Texniki Universitetinin (AzTU) tələbəsi olub.**



Bunu Universitetin mətbuat xidmətinin rəhbəri Sevinc İsgəndərova bildirib. O qeyd edib ki, vəfat edən tələbə Energetika və avtomatika fakültəsinin II kurs əlaçı magistrantı olub: "Şikar Allahverdiyev ali təhsilin bakalavriat səviyyəsini də AzTU-da fərqlənmə ilə bitirmişdi. Baş Prokurorluğun məlumatında bildirilir ki, ilkin ehtimala görə hadisə dəm qazından zəhərlənmə səbəbindən baş verib.

AzTU-nun rəhbərliyi və kollektivi Şikar Allahverdiyevin vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!". Qeyd edək ki, Bakının Səbail rayonu, Badamdar qəsəbəsi, 1-ci Yaşayış Massivi ərazisində yerləşən evlərin birində 5 nəfər dəm qazından boğulub.

Baş Prokurorluğun məlumatına görə, araşdırmalarla müəyyən olunub ki, 2004-cü il təvəllüdlü Atilla Əliyevin, 2003-cü il təvəllüdlü Lətif Əliyevin, 2000-ci il təvəllüdlü İnkişaf Allahverdiyevin, 1972-ci il təvəllüdlü Natiq Səfərovun və 1998-ci il təvəllüdlü Şikar Allahverdiyevin meyitləri Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 1-ci Yaşayış Massivinin 1-ci Döngə, ev 29 ünvanında yerləşən fərdi yaşayış evində aşkar olunub. Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

# Vətən müharibəsi iştirakçısı ev dustaqlığına buraxılıb

**Bəzi kütləvi informasiya vasitələrində Vətən Müharibəsi iştirakçısı Ziya Kazımovun əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilərək həbs edilməsi barədə düzgün olmayan məlumatlar yayılıb.**



Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, cinayət işinin istintaqı zamanı toplanmış kifayət qədər mötəbər sübutlarla Ziya Kazımov tərəfindən konkret epizodlar üzrə cinayət törədilməsinə əsaslı şübhələr müəyyən olunduğundan o, təqsirləndirilən şəxs qismində cəlb edilib, ona qarşı müvafiq ittiham irəli sürülərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Müdafiəçisinin vəsatəti əsasında bu gün Bakı Hərbi Məhkəməsi tərəfindən Ziya Kazımovun barəsində seçilmiş həbs qətimkan tədbiri ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilib. Cinayət işi üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparılmaqla qanuni qərarın qəbul edilməsi təmin ediləcək.



**■ Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımızda Ermənistan ordusunun atıb qaçdığı silah-sursatın aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan hafta.az-a verilən məlumata görə, Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş inzibati ərazisində əvvəllər düşmənin səngər və saxlanc yeri kimi istifadə etdiyi qazmalardan xeyli sayda silah-sursatlar aşkar edilərək aidiyyatı üzrə təhvil verilib. Belə ki, tədbirlər zamanı erməni hərbçilərin atıbqaçdığı 10 ədəd müxtəliftipli qumbaraatanlar və onlara məxsus 6 ədəd mərmi, 6 ədəd AK-74 avtomatı, 1 ədəd RPK pulemyotu, 4 ədəd müxtəlif markalı snayper tüfəngləri, 150-dən çox avtomat sandığı, ümumi sayı 10 mindən artıq müxtəlifçaplı patronlar və digər döyüş sursatları aşkar edilərək götürülüb.




**■ Səhiyyə Nazirliyi uşağın düzgün inkişafını təyin edən göstəriciləri açıqlayıb.**

Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova bildirir ki, ana südü ilə qidalanmanın erkən başlanması (həyatın birinci saatı ərzində) göstəricisi Azərbaycanda körpələr arasında cəmi 42%-dir ( 3 ayadək ana südü ilə qidalanma): "Ölkədə bu rəqəmlərin daha da çox olması üçün UNİCEF ilə birgə layihələr həyata keciririk. Altı ayadək yalnız ana südü ilə qidalanma göstəricisi Azərbaycanda 28%-dir".

Həkimin sözlərinə görə, həyatının ilk bir saatı ərzində ana südü (ağız südü/molozivo) ilə əmizdirilən uşaqlarda neonatal (həyatının ilk ayı) dövrdə infeksion xəstəliklərə tutulması riski 17%, neonatal dövrdə ölüm riski isə 30%-dək azalır.



**■ Ukrayna MDB çərçivəsində imzalanan mülki aviasiya və hava məkanının istifadəsinə dair sazişlərdən çıxıb. Bununla bağlı Ukrayna Prezidenti Vladimir Zelenski fərman imzalayıb. Bu barədə "Kommersant" yazır.**

"Prezident Vladimir Zelenski Ukraynanın Müstəqil Dövlətlər Birliyi çərçivəsində bağlanan beynəlxalq müqavilələrdən çıxması haqqında 70/2021 saylı fərman imzalayıb", - Ukrayna Prezidentinin rəsmi internet səhifəsində deyilir. Söhbət 1991-ci ilin dekabrın 25-də və 1992-ci ilin mayın 15-də imzalanan hava məkanının istifadəsinə dair sazişlərdən gedir. Xatırladaq ki, 1991-ci ilin sazişi, ilk növbədə, mülki aviasiya ilə əlaqəli məsələlərdə keçmiş SSRİ-nin bir neçə şöbəsinin hüquqi varisi olmuş Dövlətlərarası Aviasiya Komitəsini (İAK) təsis edib.



**■ Bakı Ağır Cinayətlər Məhkəməsində Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri (baş memar) Akif Əliyev, Mənzil Kommunal Təsərrüfat Birliyinin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin rəisi Murad Əhmədov və digərlərinin cinayət işi üzrə hazırlıq iclası davam etdirilib.**

Hakim Əli Məmmədovun sədrlik etdiyi iclasda anket məlumatları dəqiqləşdirilib. Daha sonra Abşeron Rayon İcra Hakimiyyətinin sabiq əməkdaşları - təqsirləndirilən Babək Alıyev və Tural Ağamməmmədov barəsində seçilmiş polis nəzarətinə verilmə qətimkan tədbiri dəyişdirilib. Hər iki şəxs məhkəmə zalında həbs olunub. Məhkmənin baxış iclası martın 1-nə təyin edilib.



**■ Gürcüstanda koronavirus pandemiyası səbəbindən tətbiq olunan bir neçə məhdudiyyət aradan qaldırılır. Bu barədə Dövlət Qurumlararası Koordinasiya Şurasının iclasında qərar qəbul edilib.**

Bildirilir ki, qərara əsasən, fevralın 25-dən ölkədə şəhərlərarası ictimai nəqliyyatın fəaliyyəti bərpa olunur. Bundan başqa, sabahdan ölkə üzrə dağ kurortlarında mehmanxanalar qonaq qəbul edə biləcəklər. Martın 1-dən dövlət və özəl uşaq bağçaları açılacaq, martın 8-dən isə kanat yollarından istifadəyə icazə veriləcək. Qərara əsasən, martın 15-dən teatrlar, idman klubları, peşəkar ansambllarda məşq və təlimlərin keçirilməsi mümkün olacaq, aprelin 1-dən isə fəaliyyət tam bərpa olunacaq. Martın 15-dən, həmçinin ali məktəblərdə əyani tədrisə başlanılacaq. Muzey və kitabxanalar isə fəaliyyətlərini martın 1-dən etibarən bərpa edəcəklər.



**■ Avstraliya pandemiya fonunda yaranmış tədarük kəsintiləri səbəbindən reseptli preparatların çatışmazlığı ilə üzləşib.**

Bu barədə "9News" xəbər portalı Yeni Cənubi Uels ştatındakı Avstraliya Əczaçılıq Cəmiyyətinə və ölkənin Milli Terapevtik Mallar İdarəsinə istinadən məlumat yayıb. Məlumata görə, mütəxəssislər pandemiya başlayandan bəri Avstraliya apteklərində ən ciddi dərman çatışmazlığından bəhs edir, milli tənzimləyici - Terapevtik Mallar İdarəsi (TGA) isə ölkədə ən çox işlənilən antidepresant ehtiyatlarının tükənməsi barədə xəbərdarlıq edib. Qurumun yaydığı məlumatda çatışmazlığın azı fevral ayının sonuna qədər və bəlkə də aprel ayına qədər davam edəcəyinin gözlənildiyi göstərilib. Çatışmazlığın mənfi təsirini azaltmaq üçün tənzimləyici bir sıra xaricdə qeydiyyatdan keçmiş, lakin Avstraliya lisenziyası olmayan dərmanların tədarükünə də icazə verib.

## Səfər

**Beşinci yazı**

# Dünyanın ən gözəl şəhəri - İzmir



***Səhər tezdən təyyarədən İzmirə enəndə, sanki yaz havası vardı. Hansı ki, cəmi 1 saat əvvəl Ankaranın qarlı-şaxtalı havasında az qala donurduq. Günəşin iliq şəfəqləri ilə bəzənən İzmir havasını ciyərlərimə çəkib, küçədə bizi gözləyən avtobusla Akdəniz məhəlləsinə - qalacağım otelə səmt aldım.***

Otelimiz Qaziosmanpaşa bulvarında - dənizkənarı bulvarın (Kordon) əlli addımlığında yerləşirdi. Olduqca gözəl yerdir, küçələrin ətrafını saran ağaclar, xüsusilə də qışın bu vaxtında yaşıl şələ yarpaqları ilə şəhərin gözəlliyini ikiqat artırırdı. Hara baxsan gül-çiçək görərdin, küçələr də ki, necə deyərlər, gül kimi təmiz. Qısası, bu şəhər dünya miqyasında turistlər üçün əsl görməli-gəzməli yerdir. Zatən biz qardaş ölkəyə Türkiyə Mədəniyyət və Turzim Nazirliyinin dəvəti və nazirlik yanında Turizm Tanıtım və İnkişaf Agentliyinin təşkilatçılığı ilə təşkil olunmuş səfər çərçivəsində gəlmişdik ki, bu möcüzələr ölkəsinin gözəlliklərini, turizm potensialını Azərbaycanda təbliğ edək. Amma həqiqətən də, Türkiyənin hər qarışı tarix, təbizəti rəngarəng, insanları qonaqpərvər, xidmət də ən üst səviyyədədir. Bir sözlə, bu ölkəyə gəlməyə dəyər...

Otağıma yerləşib, tez də şəhəri gəzməyə çıxdım. Təbii ki, İzmirə gələn bütün turistlər kimi mən də ilk olaraq dünyaşöhrətli Saat qülləsinin yerləşdiyi Konak meydanına üz tutdum.

### Zamanla görüşülən yer

**Saat qülləsinin yerləşdiyi Konak meydanına çatanda, ərazidə sözün əsl mənasında izdiham vardı.**

Kimi meydan boyunca səliqəylə düzülmüş oturacaqlarda oturub dincəlir, söhbət edir, kimlər də ki, beşaddımdan bir oturub buğda satan alverçi xalalardan aldıqları dəni meydana gözəllik verən al-əlvan göyərçinlərə yedirirdi. Hələ bir-birinə fürsət vermədən, Saat qülləsinin fonunda şəkil çəkdirənləri demirəm. Əslində onları qınamıram da, İzmirə gələsən, Saat qülləsinin önündə xatirə şəkli çəkdirməyəsən, mümkün deyildi. Elə mən də, qonşudan qalma geri deyib iki-üç şəkil çəkdirib gəzişməyə başladım. Valilik binasının tam qarşısında yerləşən bu əzəmətli abidənin tarixindən söz açan bələdçimiz Orçun bəy dedi ki, Saat qülləsi 1901-ci ildə, ozamankı İzmir valisi kıbrıslı Kamil Paşa və bələdiyyə sədri olmuş Əşrəf Paşa tərəfindən Osmanlı padşahı sultan II Əbdülhəmidin taxta çıxmasının 25-ci ildönümü münasibətilə tikilib.



"Gördüyümüz kimi, 25 metr hündürlüyündə, səkkizguşəli və dörd qatlıdır. Əsasən Şimali Afrika və Əndəlüs memarlığında tikilib" deyən Orçun bəyin sözlərinə görə, qüllənin saatı Almaniya imperatoru II Vilhelm tərəfindən hədiyyə olunub. İzmirli memar, amma fransız əsilli Raymond Çarles Perenin tikdiyi abidədə istifadə edilmiş yaşıl və qırmızı mozaiklər Efesdən, əsas gövdədə hörülmüş daşlar isə Saraykoydən gətirilib.

Bu yerdə qeyd edim ki, Saat qülləsi ilə eyni vaxtda tikilmiş səkkizguşəli hovuz sıradan çıxaraq dağılıb, günümüzə gəlib çatmayıb. Saat qülləsi 1928 və 1974-cü illərdə baş vermiş şiddətli zəlzələ zamanı böyük zərər görüb. Hətta 1974-cü il zəlzələsi zamanı qüllənin saatı yer titrəyişlərinin başladığı anda - saat 02.04-də dayanıb. Amma iki il davam edən təmir nəticəsində həm qüllə bərpa olunub, həm də saat işlək vəziyyətə gətirilib.

Günçıxan tərəfdən dəniz suları ilə əhatə olunan meydanın qarşı tərəfində İzmir valiliyinin 1868-1872-ci illərdə tikilmiş binası - tarixi Konak yerləşir. Tarixi dəyəri və günümüzdəki inzibati fəaliyyəti ilə yanaşı, Konak həm də 1922-ci il sentyabrın 9-da şəhərdə ilk dəfə al-qırmızı türk bayrağını göylərə çəkməklə də yaddaşlarda qalıb.

Konak meydanın bir tərəfində - Kütahya çiniləri ilə süstlənmiş Yalı camenin solunda isə 1919-cu il mayın 15-də öldürülmüş, İzmirin azadlıq mübarizəsini başlatmış jurnalist Hasan Tahsinin xatirəsinə 1974-cü ildə ucaldılmış "İlk kurşun" abidəsi bura gələnləri salamlayır.

Bu arada, bələdçimiz Orçun bəy qəhrəman jurnalist haqqında bir maraqlı bir hekayə də danışdı. Deməli, Hasan Tahsin, milli mübarizənin başlanğıcında - 1919-cu il may ayının 15-də Konak meydanında irəliləyən yunan əsgərlərə ilk gülləni atıb. Təbii ki, düşmən cavab atəşi açaraq onu elə oradaca şəhid edir. İndiki bir əlində tapanca, digər əlindəsə türk bayrağını tutatan, qranit abidə də məhz onun şəhid edildiyi yerdə ucaldılıb.

### Tacirlər şəhərciyi - Kəməraltı

**Kəsmə daş döşənmiş yerdə buğda dimdikləyən, artıq insanlardan qətiyyən qorxub-çəkinməyən göyərçin topalarını yaraq Konak binasının önünə gəldik.** Orçun bəy dedi ki, sağdakı küçə İzmirin və hətta Türkiyənin ən məşhur, ən gəzib-görməli və təbii ki, qiymətləri də hər yerdəkindən daha münasib olan qədim Kəməraltı (qapalı, üstü örtülü mənasını verir - V.T.) çarşısına aparır. Çox sevindim, belə rəzilaşdıq ki, saatyarımdan sonra elə buradaca - Saat qülləsinin altında olaq.

Kaş ki, saatyarımlıq vaxta razılaşmayaydım. Bu bazar nə qədər böyük, nə qədər rəngarəngmiş... İçində küçələr, dalanlar, camesi, yeməkxanaları - sanki böyük bir qəsəbəyə girmişdim. Düzdür, pandemiya şəraitindən dolayısı o qədər də basabas deyildi, amma burad normalda necə böyük qələbəliyin olduğunu təsəvvür etmək çətin olmazdı.

Konak meydanından Məzarlıqbaşı deyilən yerədək böyük bir bölgəni ticarət dünyasına qatan çarşının əsas yolu Anafartalar küçəsidir və çarşıdakı digər yolların hamısı demək olar ki, bura bağlanır.

Qapalı və açıq hissələrdən ibarət çarşıda nələr yoxdur: ənənəvi türk əl işlərindən keramikalar, toxunmuş və tikili məhsullar, çini qablar, mətbəx üçün lazım olan hər şey, geyim-kecim, ayaqqabı, xalça-palaz, dəridən tikilmiş məhsullar, taxtadan hazırlanmış əşyalar, "Şəkərçi" adlanan bölümdə bir-birindən nəfis türk şirniyyatları, qəhvə və çay... Ümumiyyətlə, Egey mətbəxini görmək-dadmaq istəyən mənim kimi hər bir nabələdin bu çarşıya girməsi kifayətdir. Çünki məhz burada məhsullarını satmaq istəyən satıcılar, alıcılara çeşid-çeşid şirniyyatlar, çay və ya türk qəhvəsi, şərbətlər ikram edirlər.

Bu arada, qeyd edim ki, Kəməraltı çarşısının tikilmə tarixi 1600-cü illərədək uzanır. Ən maraqlı cəhəti isə budur ki, çarşı 4 əsr əvvəl necə dizayn edilibsə, günümüzdə də təxminən o cür qalır. Burada 400 il tarixi olan cameləri, bulaqları, hamamları, o dövrün arxitekturasında tikilmiş dükanları və sair görmək mümkündür. Haradasa 5 kvadratkilometrlik ərazisi olan bazarda ümumilikdə 15 min nəfər çalışır. Məhz bu özəlliyinə görə hazırda dünyanın ən böyük açıq alış-veriş məkanı olaraq bilinməkdədir. Çarşının ərazisinə əsas yollar mən gələn tərəfdən - Konakdan, bir də qarşı tərəfdən - Çankayadandır. Əlbəttə, başqa bir neçə giriş də var.

### "Yaşayırıqsa, çörəyimizi qazanmalıyıq"

**Çaşıda kostyum satılan bir dükanda maraqlı dialoqum da oldu satıcı ilə. Deməli, diqqətimi çəkən bir məhsulun qiymətini soruşdum, özü də təmiz Azərbaycan türkcəsində.**

Satıcı - onun təxminən 65-66 yaşı olardı - ləhcə fərqindən sanki duruxdu, amma özünü o yerə qoymadan tez də sözə başladı:

- Azərbaycandan gəldiniz?

Gözləri güldü. Dedim:

*- Hə, Azərbaycandan - Bakıdan.*

- Can Azərbaycanımız... Xoş gəlib səfa gətirmisiniz. Buyurun içəri, orada almaq istədiyiniz hər şey var, bir az da söhbət edərdik, - deyə məni dükana dəvət etdi.

Dükan qədim tikilidə yerləşirdi - otaqlar kiçik, həm də xeyli dar. Satıcı dedi ki, dükan üç qatlıdır və məni Qalata qülləsində olduğu kimi, dar və dolama pilləkənlərlə alacağım məhsulların olduğu üçüncü qata qaldırdı.

Seçim edə-edə dedi:

- Azərbaycandan çox qonağım olub. İndi pandemiyadır, gələnlərin sayı azalıb, amma yenə də olur. Naxçıvandan çox tanışım var, bizdən mal alırlar. Ötən ay Təbrizdən də gəlmişdilər, çox istiqanlı idilər.

Bu yerdə sözünü kəsdim, dedim ki, Təbriz Azərbaycan şəhəridir, amma hazırda İran ərazisidir. Adı Mahmud olan ağsaqqal həmsöhbətim, sanki məndən bu cavabı gözləyirmiş kimi dilləndi:

- Onlar İranda yaşayır, amma ürəkləri Azərbaycan üçün döyünür.

***- Azərbaycanda oldunuzmu, ora sizin də vətəninizdir.***

- Təəssüf ki, olmamışam. Oğlum iki il əvvəl gedib Bakıya, Qəbələdə, Nabranda da olub. Qayıdanda o qədər təriflənmişdi ki... Niyyətim vardı getməyə, pandemiya girdi araya, qaldım. Görürsünüz də, yaşlı adamam, səhər gəlib girirəm dükana, maska ağzımda, spirt də hər yerdə - əli ilə masanın üstündəki iki fərqli qabda spirti göstərdi - əlacımız yoxdur, yaşayırıqsa, çörəyimizi də qazanmalıyıq. Çörək yoxdursa yaşamaq da olmaz, - dedi. Alacağım şeyləri seçmişdim, hər birini ayrı-ayrılıqda qablaşdırıldılar.

Sağollaşanda israr etdi:

- Ayıb olar bizə, əyləşin, mən çay, qəhvə gətirdim.

Vaxt yox idi, axı saatyarımlığına girmişdim çarşıya. Təşəkkür edib, sağollaşdım...

Çarşıdan aldığım təəssüratların az bir qismini Orçun bəyə danışdım. Saqqallı üzündə təbəssüm parladı. Görünür, İzmiri sevdiyim üçün o da sevinirdi. Dedi ki, təəssüratlarımı zənginləşdirmək üçün indi başqa bir maraqlı tarixi yerə gedəcəyik. Amma hara, sürpriz qalsın dedi.

### Hər şey insanlar üçün

**Avtobus dar küçə ilə üzüyuxarı burulub bir az getdikdən sonra sağ yanda dükanın qarşısında dayandı.**

Endik. Təxminən, dörd-beş qatlı tarixi görünüşlü yaşayış binalarının arasıyla üzü yoxuşa dalan uzanırdı. Dalanın girişində isə klassik musiqiçi Enriko Maciasın əlində gitara tutmuş halda büstü qoyulub. Digər tərəfdə isə 1921-ci ildə İzmirdə doğulmuş, amma 1968-ci ildə İstanbulda 47 yaşındaykən vəfat etmiş müğənni Dario Morenonun büstü ucaldılıb. Elə Asansör qalxan qısa küçəyə də onun adı verilib.

Hə, bu da Orçun bəyin sürpriz etdiyi asansör. Asansor türkcəsində lift deyilən asansör adi gördüklərimizdən sadəcə tarixiliyinə, onu yuxarı qaldıran qüllənin arxitekturasına görə fərqlənir. Bir də mənəvi dəyərinə, tikilməsinin məqsədinə görə. Elə bu səbəbdən də günümüzdə asansör sadəcə bu tikilinin adı deyil, bütün bölgənin bu cür adlandırılır.

Tikilinin tarixinə gəlincə, deməli, yuxarı məhəllədən aşağı enən insanlar əziyyət çəkirmiş. Bir dəfə bir qadın yıxılıb, qolunu, ayağını əzir. Bunu görən dövrün tanınmış iş adamı, İzmir vilayət məclisinin üzvü və "Bayraklı" dükanlar şəbəkəsinin sahibi, yəhudi Nesim Levi 1907-ci ildə şəxsi maliyyə hesabına Asansör qülləsini tikdirir.

Yeri gəlmişkən, bu o Nesim Levidir ki, insanların sağlamlığının qeydinə qalaraq öz şəxsi imarətini xəstəxanaya çevirir. Bildiyimiz məşhur Karataş xəstəxanası məhz bu yəhudi milyonçunun evində yerləşir.

Beləliklə, insanların 155 pillə-li pilləkəni enib-qalxmaq kimi əziyyətlərinə son qoyan Nesim Levi aşağı-yuxarı şaquli hərəkət edən asansör (lift) inşa etməklə, Mithatpaşa küçəsi ilə Şəhid Nihat Bəy prospektini bir-birinə bağlamış olub. Lap yadımdan çıxmışdı, asansördə günün hər zamanı yuxarıda haqqında söz açdığımız yəhudimənşəli musiqiçi Dario Morenonun ifasında ecazkar musiqilər səslənidirilir.

Bu gün İzmirə ayaq basan hər bir turist saymaqla bitməyən gəzməli-görməli yerlərdən biri kimi, bu tarixi tikiliyə mütləq baş çəkir. Ən əsası, çünki asansörün yuxarıdakı eyvanından şəhərin geniş və əsrarəngiz mənzərəsini ürək açıqlığı ilə izləmək və bütün İzmirin fonunda xatirə şəkilləri çəkdirmək olur...

*Bakı-İstanbul-Ankara-İzmir*

*Vüsal Tağıbəyli*

# Xocalı soyqırımı dünya mətbuatında

## Anım

**Hər il Xocalı soyqırımı ərəfəsində dünya mətbuatında bu olayla bağlı erməni vəhşiliyini gözlər önünə sərən çoxsaylı məqalələr dərc edilir. Bu il də istisna deyil. Hafta.az Xocalı soyqırımı ilə bağlı dünya mətbuatından bəzi seçmələri sizlərə təqdim edir: Amerikada çıxan "Jewish Journal" nəşrində Xocalı qırğınının şahidi, sanki möcüzə sayəsində salamat qalmış Dürdanə Ağayevanın məqaləsi dərc edilib. 1992-ci ilin fevralında baş vermiş faciəli hadisələrdən bəhs edilən bu məqalə ermənipərəst qanunvericilərin absurd bəyanatlarına cavab kimi yazılıb.**

Müəllif bildirir ki, Kaliforniya ştatının bir qrup qanunvericisi, o cümlədən senatorlar Entoni Portantino, Skott Uilk, Assambleyanın üzvləri Lora Fridman və Adrin Nazaryan tərəfindən ştatın qanunverici məclisinin üzvləri arasında yayılmış məktubu ürəkağrısı ilə oxuyub. Həmin qanunvericilər məktublarında iddia edirlər ki, guya 1992-ci il Xocalı qırğını barədə məlumatlar saxtalaşdırılıb. Onlar öz həmkarlarını Xocalı qurbanlarının xatirəsini və həmin qırğın zamanı salamat qalmış sakinləri ehtiramla yad etməyə yönəlmiş səylərə etinasızlıq göstərməyə çağırırlar. Erməni silahlıları Xocalını işğal edib Dürdanə Ağayevanı götürəndə onun cəmi 20 yaşı vardı. Müəllif yazır: "Mən ermənilərin əsir götürdükləri adamlar üçün düşərgədə saxlanan yüzlərlə dinc azərbaycanlıdan biri idim. Oradakı insanlara, o cümlədən uşaqlara və qadınlara təsvirəgəlməz işgəncələr verilirdi. Aldığım xəsarətlərin aradan qaldırılması üçün son 30 il ərzində mənim onurğa sütunumda bir neçə dəfə əməliyyat aparılıb". Xocalı qırğınının canlı şahidi olmuş D.Ağayeva qeyd edir ki, Kaliforniyanın vəzifəli şəxslərinin bu hərbi cinayətləri inkar etməyə çağırışı çox kədər doğurur. Məqalədə qeyd olunur ki, fevralın 26-na keçən gecə 613 nəfər azərbaycanlı, o cümlədən 106 qadın, 70 ahıl şəxs və 63 uşaq qətlə yetirilib.



Müəllif daha sonra yazır ki, bir neçə il bundan əvvəl İsrail Prezidenti Reuven Rivlin BMT Baş Assambleyasının tribunasından çıxış edərək deyib: "Bu gün biz özümüzə səmimi sual verməliyik: soyqırımına qarşı bizim mübarizəmiz, bu Assambleyanın mübarizəsi kifayət qədər səmərəlidirmi? O vaxt Bosniyada bu mübarizə kifayət qədər səmərəli idimi? Xocalıda azərbaycanlıların qətlə yetirilməsinin qarşısını almaq üçün bu mübarizə kifayət qədər səmərəli idimi?"

Xocalıda dinc sakinlərin kütləvi şəkildə qətlə yetirilməsinin Kaliforniya qanunvericiləri tərəfindən inkar edilməsi yolverilməzdir. Xocalı qırğını haqqında mötəbər informasiyanı, o cümlədən erməni mənbələrindən tapmaq çətin deyil. Həmin qanunvericilər "Human Rights Watch" hüquq-müdafiə təşkilatının hesabatları ilə tanış olsalar görərlər ki, bu təşkilat Xocalı hadisələrini "Qarabağ münaqişəsinin gedişində ən böyük qırğın" adlandırıb və bu cinayətin törədilməsində erməni qüvvələrini ittiham edib. Xocalıda azərbaycanlıların qırılmasına rəhbərlik etmiş keçmiş Ermənistan prezidenti Serj Sarkisyanın sözlərini bir daha yada salmaq olar. O, erməni hərbçilərinin qəddarlığı ilə lovğalanaraq deyir ki, bu cinayətlər bütün Azərbaycanı vahiməyə salmalı idi.

Məqalənin sonunda müəllif yazır ki, senatorlar Entoni Portantino, Skott Uilk, Assambleyanın üzvləri Lora Fridman və Adrin Nazaryan Xocalı qırğınının bütün qurbanlarının xatirəsi qarşısında üzr istəməlidirlər.

■ **Malayziyanın nüfuzlu nəşrlərindən olan "Utusan Malaysia" qəzeti Xocalı soyqırımının 29-cu ildönümünə həsr edilmiş böyük məqalə çap edib. Fevralın 24-də dərc edilmiş məqalə "Xocalı: Azərbaycan xalqının fəryadı" başlığı ilə təqdim olunub.** Məqalədə 1988-ci ildən etibarən qonşu Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının daha sonra zorakılıq aksiyaları ilə müşayiət olunduğu, öz doğma yurdlarında azərbaycanlılara qarşı ermənilər tərəfindən ciddi təzyiqlər göstərildiyi, onların öz dədə-baba torpaqlarından didərgin salınması, mülki vətəndaşların ən sadə məişət imkanlarından şüurlu şəkildə məhrum edildiyi nəzərə çatdırılıb. Bu sistemli təzyiqin ən qəddar məhrələsi kimi, 1992-ci il fevralın 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Xocalıya hücum edərək qanlı əməliyyat keçirdiyi, çox sayda insanın qətlə yetirildiyi və əsir götürüldüyü, canlarını qurtarmağa çalışan qadın və uşaqların isə soyuq hava nəticəsində tələf olduğu vurğulanıb.

Məqalədə soyqırımından sonrakı növbəti günlərdə yerli və xarici mətbuat nümayəndələrinin, o cümlədən mərhum jurnalist Çingiz Mustafayevin qətliamın törədildiyi ərazilərə baş çəkdikləri, onların gördükləri mənzərədən dəhşətə gəldikləri qeyd olunub. Dünya ictimaiyyətinin Xocalıda törədilən cinayət barədə məlumatlandırılması işində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının önəmli rol oynadığı, bu günə qədər 120 min insanın və 115 təşkilatın bununla bağlı maarifləndirmə fəaliyyətinə cəlb olunduğu qeyd edilib.

■ **Məqalədə Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyevin fikirlərinə geniş yer verilib:** "Ermənistan cəmiyyəti Xocalı soyqırımını törədənləri ədalətə təslim etmədiyi müddətdə, təkcə insanlıq əleyhinə olan bu cinayətin ağır yükünü çəkməkdə davam etməyəcək, eyni zamanda, özünü etibarlı qonşu statusundan məhrum edəcəkdir. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. Regionumuzun əməkdaşlıq potensialında yeni və ümidverici səhifə açılıb. Hesab edirəm ki, Ermənistan cəmiyyəti fəal şəkildə yeni prosesə qoşulmaq, həmçinin sülh və əməkdaşlığa töhfə vermək üçün təcili olaraq öz keçmişindən Xocalı soyqırımında törədilmiş ləkəni təmizləməlidir", - deyən səfirin sözləri sitat gətirilib.

Qeyd edək ki, 1939-cu ildən nəşr olunan "Utusan Malaysia" qəzeti Malayziyanın ilk malaydilli qəzeti olmaqla yanaşı, bu ölkədə ən çoxsaylı tirajla gündəlik dərc olunur.

■ **Misirli yazıçı və tədqiqatçı, "Qarabağ: Qafqazda sülhə aparan yol" kitabının müəllifi Əhməd Abdo Tərabik "Əl Vəsilə" qəzetində "Xocalı və dünyada ədalət meyarları" sərlövhəli məqalə ilə çıxış edib.** Məqalədə dünyada baş verən bir çox münaqişə və faciələrin məhz ədalətsizlik və "ikili standartlar" səbəbindən meydana gəldiyi, işğalçılara verilən dəstəyin isə Xocalı soyqırımı kimi ağır cinayətlərə yol açdığı qeyd olunur. Müəllif yazır: "Tarixin qan yaddaşında bu cür ağır faciələr var və təəssüf ki, beynəlxalq ictimaiyyətin hələ də onlara lazımi qiymət verməməsi, onları törədənlərin cəzasız qalması yeni presedentlər yaradır. Xocalı kimi dəhşətli cinayətlərin ağrıları isə hələ də hiss edilir.

Xocalı soyqırımı haqqında ətraflı məlumatın yer aldığı məqalədə diqqətə çatdırılır ki, XX əsrin ən vəhşi qırğınlarında biri olan bu faciə Ermənistanın etnik təmizləmə siyasətinin nəticəsi idi. Qarabağda strateji əhəmiyyətə malik olan bu şəhərin sakinlərinin mətanəti və müqavimətini sındırmaq istəyən erməni işğalçıları ümumilikdə bütün azərbaycanlıları öz doğma yurdundan didərgin salmaq məqsədi güdürdülər.

Sonda müəllif vurğulayır ki, dünya ictimaiyyəti, xüsusən beynəlxalq hüquq təşkilatları Xocalı faciəsinə lazımi qiymət verməli, erməni canilərinin bu ağır cinayətdən yaxasını kənara çəkməsi cəhdlərinin qarşısı qətiyyətlə alınmalıdır. Bunun üçün bütün faktlar və sübutlar, hətta erməni siyasətçilərin etirafları kifayətdir.

■ **ABŞ-ın Kaliforniya ştatının San-Dieqo şəhərində fəaliyyət göstərən tanınmış jurnalist Raul Kontrerasın müəllifliyi ilə fevralın 23-də Xocalı soyqırımına həsr olunmuş televiziya verilişi yayımlanıb.** Veriliş müəllifin "The Contreras Report: International Edition" müəllif proqramı çərçivəsində hazırlanıb. Bu barədə hafta.az-a Azərbaycan Respublikasının Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.

Qeyd edək ki, R.Kontreras "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" və "Erməni lobbisi və ABŞ-ın xarici siyasəti" kitablarının müəllifidir və onun indiyədək Azərbaycan haqda bir sıra nüfuzlu mətbu orqanlarında çoxsaylı məqalələri dərc olunub.

Sözügedən verilişdə müəllif 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Xocalı şəhərinə hücum edərək, uşaqlar və qadınlar da daxil olmaqla çoxlu sayda insanı qətlə yetirdiklərini vurğulayır. Müəllif, həmçinin erməni cəlladlarının əsir götürdükləri azərbaycanlılara qarşı ağlasığmaz işgəncələr verdiklərini diqqətə çatdırır. R.Kontreras Xocalı qırğınının soyqırımı olduğunu bildirir və bunu insanlığa qarşı törədilmiş cinayət adlandırır. Müəllif Xocalı soyqırımı haqda qərb müəlliflərinin yazdığı kitablar haqda məlumat verir. O, həmçinin sözügedən soyqırımında iştirak etmiş Kaliforniyadan olan erməni terrorist Monte Melkonyanın qardaşının yazdığı kitabdan və Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın mövzu ilə bağlı müsahibəsindən sitatlar gətirərək, ermənilərin Xocalıda törətdikləri vəhşiliklərin necə etiraf etdiklərini diqqətə çatdırır.

R.Kontreras Xocalı soyqırımını törədənlərin indiyədək cəzalandırılmadığını, onlardan bir çoxunun Ermənistanda milli qəhrəman səviyyəsinə qaldırıldığını və hökumətdə yüksək vəzifə tutduğunu vurğulayır. Müəllif daha sonra Xocalı şəhidlərinin öz dilindən Xocalıda törədilmiş vəhşiliklər haqda qısa videosüjet təqdim edib.

*Azad Əliyev*

## Aktual

# Bakıya qar yaraşmır

**Doqquz ildən sonra Bakıda qarlı və şaxtalı əsl qış havası yaşandı. Çovğun və fırtına ilə müşahidə edilən qarlı-boranlı hava şəraiti yenə də paytaxt Bakıda və bölgələrdə bir çox sahələrin fəaliyyətinə ciddi təsir göstərdi. İctimai nəqliyyat, su, qaz, işıq və istilik təminatı, yollardakı vəziyyət daha çox nəzərə çarpan və birbaşa təsirə malik qalan sahələrdir.**



### Gücləndirilmiş iş rejimi

Qarlı və şaxtalı hava ilə əlaqədar müvafiq dövlət qurumları gücləndirilmiş iş rejimində fəaliyyət göstərdiklərini deyirlər.

■ **Havaların kəskin dəyişməsi, qar və çovğun səbəbindən "Azərişıq" ASC gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. ASC-nin mətbuat xidmətindən hafta.az-a bildirilib ki, Bakı şəhəri və regionlarda gücləndirilmiş iş və növbətçilik sistemi təşkil olunub.**

Ötən gün axşam saatlarından başlayaraq səhərədək və hazırda da əməkdaşlar fasiləsiz olaraq ərazidə xidmətlərini davam etdirir. Bəzi ərazilərdə buzlaşma və yüklənmə səbəbindən baş vermiş qısamüddətli açılmalar Qəza xidmətinin əməkdaşları tərəfindən aradan qaldırılır. Bir neçə ünvanda isə işlər davam edir və ən qısa vaxtda elektrik enerjisi təchizatı bərpa olunacaq. Qeyd edək ki, öncədən ərazilərə əlavə mal-material göndərilib və maşın-mexanizmlərin cəlb edilməsi ilə bağlı tapşırıq verilib. İstehlakçılara bildirilir ki, elektrik enerji təchizatı ilə əlaqədar qarşılaşdıqları çətinliklərlə bağlı 24 saat fəaliyyət göstərən və bütün ölkə ərazisini əhatə edən 199 Çağrı mərkəzi ilə əlaqə saxlasınlar.

■ **Fevralın 24-də axşam saatlarından etibarən hava şəraitinin kəskin dəyişməsi ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin (FHN) aidiyyəti qurumları da gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.** FHN-nin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, hava şəraiti ilə əlaqədar olaraq köməksiz vəziyyətdə qalma halı ilə bağlı nazirliyin 112 - qaynar telefon xəttinə vətəndaşlar tərəfindən müxtəlif zənglər daxil olub. FHN-in müvafiq qüvvələri tərəfindən xilasetmə əməliyyatları həyata keçirilib. Nazirlik bir daha vətəndaşlarımızı piyada və sükan arxasında olarkən ehtiyatlı olmağa, hava şəraiti ilə əlaqədar təhlükəsiz davranış qaydalarına əməl etməyə çağırır.

Müraciətdə qeyd olunur ki, torpağın üstündə, yollarda, səkilərdə ərimiş qarın, yağmış yağış sularının, şehin donması nəticəsində yollar buz bağlayıb. Buzbağlama, adətən, şaxtalı havada müşahidə edilir. Donmuş buz qatının qalınlığı bir neçə santimetrə çata bilər.

"Yolların buz bağlaması zamanı hava proqnozunda yolların buz bağlayacağı haqqında məlumatı izləyin. Ayaqqabını sürüşməyə qarşı hazırlayın, onun dabanına metalbasma, quru altlığa isə yapışqan plastır, yaxud izolyasiya lenti yapışdırın. Altlığı qum və ya sumbata kağızı ilə sürtün.

Ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq hərəkət edin. Bu zaman ayaqlar azca zəiflədilmiş, əllər boş olmalıdır. Yaşlı insanların rezinucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur. Sürüşsəniz zərbənin gücünü azaltmaq üçün oturun. Yıxılanda özünüzü toparlayın, qollarınızı büküb diyirlənərək zədə almaqdan qorunun. Sürüşərək zədə almısınızsa, təcili tibbi yardıma müraciət edin", - deyə müraciətdə vurğulanır.

■ **Bakı şəhəri və Azərbaycanın digər rayonlarında qaz təchizatında ciddi problemlər müşahidə olunmur. Bunu hafta.az-a "Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri Ceyhun Səfərov deyib.** Onun sözlərinə görə, bəzi yerlərdən daxil olan müraciətlərdə qaz təzyiqi ilə bağlı müəyyən narahatlıqlar ifadə olunur. Operativ olaraq "Azəriqaz"ın işçi qrupları ərazilərə cəlb edilməklə bu problemlər aradan qaldırılır.

"Qaz təchizatı ilə bağlı işlər daimi diqqətdə saxlanılır. Gücləndirilmiş rejimdə çalışmağa davam edirik", - C. Səfərov qeyd edib. O əlavə edib ki, hazırda respublika ərazisində qaza olan tələbatın artımı müşahidə olunur. Bu ayın 23-nə "Azəriqaz" tərəfindən 32 mln. kubmetr (gündəlik - red.) qaz qəbul olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 mln. kubmetr çoxdur: "Bu gün də ehtimal edirik ki, qəbulda artım olacaq, çünki tələbat çoxalıb".

■ **Dünən günorta saatlarına qədər isə "Azərsu" ASC-nin Çağrı Mərkəzinə sayğacların və su xətlərinin donması ilə bağlı 11 müraciət daxil olub. Bunu hafta.az-a ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı deyib.**

Onun sözlərinə görə, bu problemlərlə əsasən, Bakıətrafı fərdi yaşayış evlərində yaşayan vətəndaşlar üzləşiblər. "Ümumilikdə, vəziyyət stabildir. İstismar departamenti tam gücləndirilmiş rejimində çalışır və hər şey nəzarətdə saxlanılır ki, problemlər yaşanmasın. Mənbələr, anbarlar, xətlərin hamısı işlək vəziyyətdədir. Mənbələrdən normal həcmdə su verilir ki, vətəndaşlar su ilə təmin olunsun", - deyə A. Cəbrayıllı qeyd edib. Regionlara gəldikdə, ASC-nin rəsmisi əlavə edib ki, qeyd olunan problemlərlə bağlı müraciətlər ən çox Balakən və Qəbələ istiqamətinə olan rayonlardan daxil olub, bu da müşahidə olunan yüksək şaxtalı hava ilə əlaqədardır.

■ **"Azəristiliktəchizat" ASC-nin bütün istilik mənbələri normal qaydada fəaliyyət göstərir. Bunu ASC-nin Abonent və müştərilər xidmətlərinin rəisi Rafiq Əliyev deyib.** Onun sözlərinə görə, hava şəraitinin kəskin dəyişməsi ilə bağlı xəbərdarlıq gəldikdən sonra rəhbərlik tərəfindən bütün tabeli qurumlara gücləndirilmiş iş rejiminə keçidlə bağlı göstərişlər verilib. "Hazırda bizim 558 qazanxana və 90 istilik məntəqəsi normal rejimdə fəaliyyət göstərir. İstilik mənbələrimizdə hər hansı bir qəza və ya fövqəladə halların yaranması gözlənilmir", - R. Əliyev qeyd edib. Buna baxmayaraq, R. Əliyevin sözlərinə görə, ASC-nin rəhbərliyi tərəfindən bu günlərdə yaşayış binalarında və sosial obyektlərdə istiliyə olan tələbatın artacağını nəzərə alaraq, qazanxana və istilik mənbələrində verilən istiliyin temperatur qrafikinə uyğunlaşdırılması tapşırılıb.

■ **Küləkli hava şəraiti ilə bağlı təhlükəsizlik tədbirləri çərçivəsində SOCAR-ın dənizdə çalışan 51 əməkdaşı daha təhlükəsiz yerlərə köçürülüb. Bunu hafta.az-a SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.**

Onun sözlərinə görə, köçürülən əməkdaşların sayı planlaşdırılandan (öncə 45 nəfərin daşınması haqqında bildirilirdi - red.) bir qədər çox olub. Köçürülən neftçilərin əsas hissəsi "Neft Daşları"na çatdırılıb. "Hazırda vəziyyət normandır", - deyə İ. Əhmədov qeyd edib.



O əlavə edib ki, SOCAR-ın istehsalat sahələrində təhlükəsizlik tədbirləri gücləndirilib, açıq səthlərdə aparılan işlər dayandırılıb, idarə aparatında və sahələrdə məsul şəxslərdən ibarət növbətçilik təşkil olunub.

### Sığınacaqlara 6 nəfər yerləşdirilib

■ **Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə son iki gündə daha 6 nəfər yerləşdirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, qarlı və çovğunlu hava şəraiti ilə əlaqədar hazırda müəssisə gücləndirilmiş iş rejimində işləyir. Aidiyyəti qurumlardan və vətəndaşlardan müəyyən yaşayış yeri olmayan, baxımsız, kimsəsiz, sosial təhlükəli vəziyyətdə olan şəxslərlə qarşılaşdıqda Sosial Xidmətlər Agentliyinin hər gün və 24 saat fəaliyyət göstərən (012) 550 39 08 nömrəsi ilə əlaqə saxlayaraq məlumat vermələri xahiş olunur.

Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində 4-18 yaşa qədər və 18 yaşdan yuxarı şəxslər üçün bölmələr, həmçinin pandemiya ilə əlaqədar karantin bölməsi fəaliyyət göstərir. Hazırda sığınacaqda 61 sakin var. Onlardan 52 nəfər 18 yaşdan yuxarı, 9 nəfər isə 4-18 yaş qrupunda olanlardır. Müəssisəyə qəbul olunanlar burada yaşayış yeri, gündə 3 dəfə qidalanma və reabilitasiya yönümlü sosial xidmətlərlə təmin olunurlar.

■ **Dünən axşamdan bəri müşahidə olunan qarlı hava və çovğun Heydər Əliyev Beynəlxalq Hava Limanının işinə təsir göstərməyib.** Bu barədə hafta.az-a "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski bildirib. Onun sözlərinə görə, hava limanı adi qaydada işləyir: "Bütün istiqamətlər üzrə planlaşdırılan uçuşlar heç bir dəyişiklik edilmədən həyata keçiriləcək".

### Xəsarət alanlar

**Dünən saat 13:00-a qədər olan məlumata görə, hava şəraiti ilə əlaqədar 22 nəfər (10 kişi, 12 qadın) yıxılaraq müxtəlif dərəcəli bədən xəsarətləri alıb.** Səhiyyə Nazirliyindən hafta.az-a verilən xəbərə görə, yaralılardan 2-nə yerində yardım göstərilib, digərləri xəstəxanaya yerləşdiriliblər.

Sumqayıtda qarlı hava ilə əlaqədar 21 nəfər yıxılaraq sınıq xəsarəti alıb, 13 nəfər isə əzilib. Cınıq xəsarəti alanlardan 4-ü və əzilənlərdən 1- uşaqdır.

Qaradağ rayonu ərazisində baş verən avtoqəza nəticəsində isə 1 nəfər (kişi) hadisə yerində dünyasını dəyişib. Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından hafta.az-a verilən məlumata görə, 4 nəfər müxtəlif dərəcəli xəsarətlər alaraq Respublika Kliniki Xəstəxanasına yerləşdirilib.

Bir nəfərə isə yerində yardım göstərilib. Qeyd edək ki, Bakıda zəncirvarı yol qəzası olub. Hadisə paytaxtın Qaradağ rayonu ərazisində, Bakı Dairəvi Yolunun Lökbatandan keçən hissəsində qeydə alınıb. İlkin məlumata görə, qəza nəticəsində 15-20 avtomobil toqquşub.

CBC TV-nin çəkiliş qrupu Tərtər-Bərdə yolu istiqamətində avtomobil qəzasına düşüb. Qəzaya səbəb yolların buzlu olmasıdır. Qəza zamanı xəsarət alan olmasa da, avtomobilə ciddi ziyan dəyib.

*✍ Banu*



# "Uşaqlara soyuq olar" qorxusu

## Sosial

***Bu qış gec də olsa, paytaxt Bakıya gözlənilən qarı gətirdi. Xəstəliklərin artdığı belə vaxtda qar bir çoxları üçün ümid işığı oldu. Axı el arasında "Qar yağanda mikroblar da ölür", - kimi məşhur deyim var. Bəs görəsən, doğrudanmı qar mikrobları məhv edir? Qarın başqa nə kimi faydaları var? Belə havalarda uşaqları çölə çıxarmaq düzgündür? Hafta.az mövzu ilə bağlı olaraq mütəxəssisə müraciət etdi.***



**Vaqif Qarayev,**
Həkim-pediatr

Həkim-pediatr Vaqif Qarayev bildirdi ki, qarın yağması insanlara həm psixoloji, həm də fiziki cəhətdən olduqca müsbət təsir bağışlayır. Bu cür hava şəraiti tənəffüs problemi olan şəxslərin rahat nəfəs ala bilməsinə şərait yaradır: "Hər fəslin öz havası - iqlim parametrləri olmalıdır. Buna görə də qar qış üçün yazılıb. Nə qədər şaxta olsa da, havanı yumşaldır. Belə havalarda hər kəs sinədolusu nəfəs ala bilir. Pandemiyanı nəzərə almasaq, havadakı başqa, tənəffüs orqanlarını zədələyən virusları məhv edir. Qarın faydaları saymaqla bitmir. Qışda qar yağmalıdır ki, yaz aylarında bitkilər torpaqdan kifayət qədər rütubət çəkə bilsin. Buna görə də kənd təsərrüfatı ilə məşğul olanlar üçün qarın yağması müsbət hadisə hesab olunur".

Həkim mövzuya sırf psixoloji baxımdan yanaşarkən, uşaqların sevincini xüsusilə vurğuladı: "İndi qarlı havaya ən çox sevinən uşaqlardır. Onsuz da pandemiya ilə bağlı bir ildir balacaları evlərə qapamışıq. İndi isə tutsan da dayanmazlar. Bu hadisə onlara psixoloji olaraq yaxşı təsir bağışlayır. Söhbət tək qartopu oynamaqdan getmir. Qar həm də gözə verilən müsbət auradır". Mütəxəssis belə havalarda "uşaqlarına soyuq olar" qorxusu ilə çölə çıxarmayan valideynlərə də bəzi tövsiyələr etdi:

*"Uşağın yuxarı tənəffüs yolları soyuq hava kütlələri ilə təmasda olmalıdır*

"Biz millət olaraq soyuğa "cin" kimi yanaşırıq. Ona qalsa, şimal bölgəsində yaşayanlar ümumiyyətlə bayıra çıxmamalıdırlar. Buna görə də uşağı körpəlikdən bütün havalara öyrətmək lazımdır. Bəzən görürəm ki, az qala, iki-üç şərflə uşağın ağzını bağlayıb küçəyə çıxarırlar. Bu, düzgün deyil. Uşaq təmiz havada nəfəs ala bilmir. Onları birdən-birə yox, lakin tədricən soyuq havaya öyrətmək lazımdır. Uşağın yuxarı tənəffüs yolları soyuq hava kütlələri ilə təmasda olmalıdır. Aylarla qapalı və isti şəraitdə yaşayan uşaq anidən soyuğa çıxsa, təbii ki, xəstələnəcək. Fikrimcə, bu havada, hətta südəmər yaşda körpələri də çölə çıxarmaq lazımdır. Yenidoğulmuş uşağı, təxminən, 1 həftə sonra təmiz havaya öyrətmək lazımdır. Ən çox yaşlı insanlar həkimlərin bu fikri ilə razılaşmır. Nəinki qışda, heç yay aylarında belə uşağa dondurma verməyin ziyanlı olduğunu deyirlər. Təbii ki, bütün bunlar yanlış düşüncələrdir. Yenə də deyirəm, boğaz mütləq soyuğa öyrəşməlidir".

Qeyd edək ki, qar adrenalin və xoşbəxtlik hormonu ifrazını artırır. Havada və torpaqda olan zərərli mikroblar qarla birlikdə yox olur. Bundan başqa qarın yağması torpağı zənginləşdirir, hava temperaturunu nizamlayır, bitkiləri qoruyur. Eyni zamanda o, quraqlığın qarşısını almağa kömək göstərir, yeraltı su ehtiyatının çoxalmasını təmin edir.

*✍ Banu*

# İlin idmançısı adına namizədlər



**İlin idmançısı (Laureus World Sports) nominasiyasına namizəd şəxslərin adları açıqlanıb. Bu barədə "Laureus Sport" məlumat yayıb.**

Namizədlər arasında "Bavariya"nın futbolçusu Robert Levandovski, dünyanın 2-ci ən güclü tennisçisi Rafael Nadal, "Leykers"in hücumçusu LeBron Ceyms və F1 çempionu "Mersedes"in sürücüsü Luis Hamilton, atıcı, dünya rekordçusu Armand Duplantis yer alıb. Qeyd edək ki, ötən il mükafata Hamilton və "Barselona"nın kapitanı Lionel Messi layiq görülmüşdü.

## GÜNÜN FOTOSU



Deyəsən, xəstələnmişəm...

# 200 metr enində sahədə 7-8 mina xətti var...

**Mədəd Məmmədov,**
mina təmizləmə üzrə əməliyyat meneceri

Xəritələrin bizə verilməməsi bizim işimizi həddindən artıq çətinləşdirir və mürəkkəbləşdirir. ▸▸ Səh. 2

## STATİSTİKA



■ Aktiv və passiv həyat tərzi sürən insanlar arasında ölüm riski 80 faiz fərqlidir.

■ Hər gün on dəqiqə idmanla məşğul olmaq çəkinizə nəzarət, özünü gümrah hiss etməyiniz üçün kifayətdir.

■ İnsan beyni 27yaşından sonra qocalmağa başlayır. Beynin inkişafının pik həddi isə 22 yaşdır. Bu yaşda beynin inkişafı tamamilə dayanır.



▸▸ Səh. 7

# Dünyanın ən gözəl şəhəri - İzmir